Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 168 (8191) ŞƏNBƏ, 3 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb

Regionların sosial-iqtisadi inkişafı Azərbaycan dövlətinin qarşıya qoyduğu prioritetlərdən biri olaraq qalır. Cari ilin əvvəlində bu istiqamətdə təsdiq edilmiş dördüncü Dövlət Proqramının icrasına başlanıb. Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bu barədə ətraflı bəhs olunub.

Azərbaycan dövlətinin sosial-iqtisadi inkişaf strategiyasının başlıca istiqamətlərindən biri regionların tarazlı və davamlı inkişafıdır. 2004-cü ildə start götürən ilk dövlət proqramından bəri respublikanın rayonlarının siması yaxşı mənada tanınmaz olub. Başqa sözlə, üç dövlət proqramında nəzərdə tutulan genişmiqyaslı işlər, mühüm iqtisadi və infrastruktur layihələri gerçəkləşdirilib. Nəticədə əhalinin rifah halı getdikcə daha da yaxşılaşır.

Əsas vəzifələrdən biri yeni iş yerlərinin açılması və məşğulluğun təmin olunmasıdır. Bu sahədə xeyli iş görülüb. Yeni müəssisələr açılıb, sənaye parkları və məhəllələri yaradılıb, kənd təsərrüfatında unudulmuş sahələr yenidən bərpa olunub. Məsələn, indiyədək regionlarda 9 sənaye parkı və məhəlləri yaradılıb. Bu park və məhəllələrdə 78 rezident qeydiyyatdan keçib, 45-i fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən 5,7 milyard manatı yatırılıb. Bunun nəticəsində 11 mindən çox yeni iş yerləri açılıb.

51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb. 22 aqropark fəaliyyət göstərir. Bu ilin sonuna qədər daha 11 aqropark fəaliyyətə başlayacaq. Bu layihələrin icrası nəticəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaq.

Yatırılan investisiyaların təşviqi sahəsində görülən tədbirlər regionların inkişafına müsbət təsir göstərir. Sərmayələrin təşviqi mexanizmi uğurlu nəticələr verir. Belə ki, indiyədək 400-ə yaxın layihə təşviq olunub və bunların sayəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub, 16 mindən çox yeni iş yeri açılıb.

Prezident İlham Əliyev sözügedən müşavirədə bu barədə demişdir: "Biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb. Dünya Bankının "Doing Business" proqramı çərçivəsində Azərbaycan 10 ən islahatçı ölkə kimi tanınır və biz 32 pillə irəliləmişik və hazırda 25-ci yerdəyik. Əlbəttə ki, bu, Azərbaycana investisiyaların cəlb edilməsi üçün müsbət rol oynayır və oynayacaq. Bütün aparıcı beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir".

Təsadüfi deyil ki, Dövlət İnvestisiya Proqramında nəzərdə tutulan vəsaitlərin böyük hissəsi həm də regionların sosial-iqtisadi inkişafının dördüncü Dövlət Proqramının əsas istiqaməti olan infrastruktur layihələrinin icrasına yönəldilib. Bu sahədə əvvəlki proqramlara əsasən də böyük həcmdə işlər görülüb. Üç mindən çox məktəb yenidən tikilib, yaxud əsaslı təmir olunub. Son 15 il ərzində ölkədə 15 min kilometr yol çəkilib. Bu ilin 6 ayında çəkilmiş yolların uzunluğu 400 kilometrə yaxındır. Odur ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında Azərbaycan avtomobil yollarının keyfiyyətinə görə 34-cü yerdədir. Görüləcək işlər, yönəldilən investisiyalar bu sahədə daha böyük uğurların qazanılacağına ümid verir. Belə ki, bu il onlarca yeni məktəbin tikintisi nəzərdə tutulur. 10 şəhərdə mərkəzi xəstəxana yenidən inşa ediləcək, yaxud əsaslı şəkildə təmir olunacaq. Üç olimpiya kompleksinin açılışı gözlənilir, biri artıq istifadəyə verilib. Dövlət İnvestisiya Proqramında bir sıra digər işlər də nəzərdə tutulur. Məsələn, cari ildə də kənd yolları və şəhərlərarası yollar çəkiləcək. 1000 kilometrə yaxın yolun çəkilişi nəzərdə tutulub.

Digər sahələrdə də vəziyyət ürəkaçandır. Elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su sahələrində, suvarma layihələrinin icrasında genişmiqyaslı işlər görülüb.

Ardı 3-cü səh.

# Oman Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Oman Sultanlığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasim Məhəmməd Salim Al Salhinin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Qasim Məhəmməd Salim Al Salhi fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Qasim Məhəmməd Salim Al Salhi etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin yaxşı səviyyədə olduğunu, siyasi əlaqələrin məmnunluq doğurduğunu bildirərək təmasların daha da fəallaşdırılmasının və əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsinin vacibliyini qeyd etdi. Prezident İlham Əliyev biznes dairələri arasında əlaqələrin qurulmasının önəmini vurğuladı.

Səfir Qasim Məhəmməd Salim Al Salhi, ilk növbədə, Oman Sultanı Qabus bin Said Al Saidin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsinin zəruriliyini qeyd edərək səfir kimi fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlət başçısı Oman Sultanı Qabus bin Said Al Saidin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Oman Sultanına çatdırmağı xahiş etdi.

Söhbət zamanı təhsil sahəsində əməkdaşlıq, o cümlədən universitetlərarası əlaqələr məsələlərinə də toxunuldu.

# Azərbaycanın verdiyi dəstəyi Laos hökuməti yüksək qiymətləndirir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sivienqpxet Pxetvorasakın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Sivienqpxet Pxetvorasak fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Sivienqpxet Pxetvorasak etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı əlaqələrimizin daha da genişləndirilməsi və əməkdaşlıq üçün konkret sahələrin müəyyənləşdirilməsinin önəmini vurğuladı. Müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev bu səfərlər zamanı əlaqələrimizin daha da inkişafı ilə bağlı səmərəli müzakirələrin aparıldığını dedi.

Səfir Sivienqpxet Pxetvorasak Laos rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı. Sivienqpxet Pxetvorasak əlaqələrimizin inkişafına Azərbaycan tərəfinin verdiyi dəstəyi Laos hökuməti və xalqının yüksək qiymətləndirdiklərini dedi. Sivienqpxet Pxetvorasak öz növbəsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına töhfə verdiyini qeyd etdi. Səfir ikitərəfli münasibətlərimizin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini dedi və yaxşı ənənələrə əsaslanan əlaqələrimizin bundan sonra daha da genişləndiriləcəyinə əmin olduğunu bildirdi.

Dövlət başçısı Laos rəhbərliyinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Laos rəhbərliyinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticarət, humanitar, turizm və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri sosial ədalət siyasəti ilə birləşib

## İlham Əliyevin sistemli islahatlarının nəticəsində respublikamız beynəlxalq aləmdə həm də modern dövlət kimi tanınır

"Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir".



Sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanan Prezident İlham Əliyevin bu fikirlərinə əsaslanaraq deyə bilərik ki, həqiqətən də Azərbaycan sosial sahəyə böyük diqqət göstərən ölkədir. Təkcə bu ilin 6 ayında dövlət başçısının böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı fərman və sərəncamlar bunu təsdiqləyən reallıqdır. Bu bir həqiqətdir ki, iqtisadi tərəqqi güclü sosial siyasətin təminatıdır. Ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətlərindəndir. Dövlət başçısı çıxışlarında daim bildirir ki, vətəndaş amili həyata keçirilən siyasətin önündə dayanır. İqtisadi göstəricilər təkcə rəqəmlərdə deyil, insanların gündəlik həyatında da öz əksini tapmalıdır.

Bu gün həqiqətən Azərbaycanın dünyaya səs salan və yüksək səviyyədə təqdir olunan yeni iqtisadi və sosial inkişaf modeli qarşıdakı illərin aydın mənzərəsini yaradır. Təbii ki, bu uğurlara yol açan əsas faktor təkmil islahatlar, zamanın tələbinə uyğun yeniləşmə, dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinad etməkdir. Sistemli xarakter daşıyan islahatların nəticəsi olaraq Azərbaycan bu gün beynəlxalq aləmdə sosial dövlət kimi tanınır və nüfuz qazanır.

Ardı 4-cü səh.

# Ermənistanda hər il on minlərlə gənc hərbi xidmətdən yayınır

## İşğalçı ölkənin ordusunda korrupsiya və özbaşınalıq geniş yayılıb

Ermənistanda bütün sahələr üzrə özünü getdikcə daha qabarıq formada büruzə verən tənəzzül bu ölkənin ordusunda da acınacaqlı durumun formalaşması ilə müşayiət olunur. Orduda korrupsiya, rüşvətxorluq, özbaşınalıq geniş vüsət alıb. Ümumiyyətlə, cəmiyyətdə olan neqativ tendensiyalar ordunu da bürüyüb. Artıq erməni ordusu maddi-texniki, şəxsi heyətlə təminat baxımından əvvəlki dövrlərlə müqayisədə indi daha ciddi çətinliklər yaşayır.

İndi Ermənistanda belə bir fikir hakimdir ki, orduda zabitlər əsgərlərə vətənin müdafiəçiləri kimi deyil, şəxsi varlanmalarını təmin edən obyekt kimi baxırlar. O da vurğulanır ki, Ermənistan Müdafiə Nazirliyi heç də bütün insidentlər haqda məlumat vermir, bəzi hallar naməlum olaraq qalır.

İctimaiyyətin etirazlarına baxmayaraq, vəziyyət dəyişmir, Ermənistan rəhbərliyi baş verən mənfi halların qarşısını almağa cəhd etsə belə buna nail ola bilmir. Nəticədə əvvəlki kimi Ermənistan ordusunda hərbi nizam-intizam, əsgər və zabitlərin döyüş bacarığı çox aşağıdır. Son məlumatların təhlili bir daha göstərir ki, qeyri-döyüş şəraitində itkilərin yaşanmasına əsas səbəb orduda xəstəliyin tüğyan etməsi, intihar, müxtəlif qəza və nizamnamədənkənar davranışlardı.

İşğalçı ölkə mətbuatı ötən bir ay ərzində orduda itki, yaralanma və digər hadisələri təqdim edib. Bildirilib ki, Ermənistan ordusunda 3 ölüm hadisəsi qeydə alınıb, 9 hərbçi yaralanıb. Eyni zamanda 7 fərarilik, 1 zorlama və 1 oğurluq faktı da aşkarlanıb.

Ordudakı yüksək vəzifəli zabitlərin özbaşınalıqları, rüşvətxorluğu, nizamnamədənkənar və nalayiq davranışları müddətli xidmət edən əsgərlər arasında fərariliklə yanaşı, intihar hallarının sayının sürətlə artmasına səbəb olur.

Ardı 4-cü səh.

# 6 ayda ölkə üzrə qeyri-neft məhsullarının ixracı 15 faiz artıb

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "İxrac İcmalı"nın cari ilin iyul sayını təqdim edib. İcmalın bu sayında göstərilir ki, 2019-cu ilin yanvar-iyun ayları ərzində Azərbaycandan ixrac edilən məhsulların dəyəri 9,98 milyard dollar olub ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 1,3 milyard dollarlıq, yaxud 15 faiz çoxdur.



Hesabat dövründə ölkədən ixrac edilən qeyri-neft məhsullarının dəyəri isə 979 milyon dollar olub. Bu isə keçən ilin müvafiq dövründəkindən 127 milyon dollarlıq və ya 15 faiz artıqdır.

İcmalda qeyd olunur ki, cari ilin ilk yarısında Rusiyaya 355 milyon, Türkiyəyə 213,3 milyon, Gürcüstana 85,4 milyon, İsveçrəyə 73,5 milyon və İtaliyaya 30,5 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə Rusiyaya qeyri-neft məhsullarının ixracı 11, Türkiyəyə 18, Gürcüstana 15, İsveçrəyə 6 faiz, İtaliyaya 2,3 dəfə artmışdır.

Ardı 3-cü səh.

# Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 11-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 11, maddə 687; 2004, № 7, maddə 505; 2006, № 3, maddə 223; 2010, № 11, maddə 936; 2013, № 5, maddə 464; 2014, № 11, maddə 1334; 2015, № 10, maddə 1083; 2018, № 6, maddə 1189; 2019, № 3, maddə 386; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1541-VQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nin 93-cü maddəsində "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə və Kənd Təsərrüfatı Nazirliyinə" sözləri "müvafiq icra hakimiyyəti orqanına" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 479; 2003, № 1, maddə 8; 2004, № 2, maddə 57; 2006, № 8, maddə 657; 2007, № 8, maddə 745; 2008, № 6, maddə 460; 2009, № 2, maddə 43, № 10, maddə 769; 2014, № 5, maddə 462; 2015, № 4, maddə 361; 2017, № 12 (I kitab), maddə 2203; Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1528-VQD nömrəli Qanunu) 34-cü maddəsinin üçüncü hissəsində "təbabəti" sözü "xidməti" sözü ilə əvəz edilsin.

**Maddə 3.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7, maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45; Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1508 nömrəli, 29 mart tarixli 1550-VQD və 1552-VQD nömrəli qanunları) 22.0.19-cu maddəsində "təbabəti" sözü "xidməti" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 682; 2007, № 12, maddə 1218; 2008, № 2, maddə 49, № 5, maddə 344; 2009, № 12, maddələr 948, 968; 2014, № 10, maddə 1151; 2018, № 4, maddə 640, № 12 (I kitab), maddə 2490) aşağıdakı dəyişikliklər edilsin:

4.1. aşağıdakı məzmunda 6.0.8-1-ci və 7.1-1-ci maddələr əlavə edilsin:

"6.0.8-1. epizootiya monitorinqinin aparılması qaydasını müəyyən etmək;";

"7.1-1. Dövlət baytarlıq xidməti aşağıdakıları əhatə edir:

7.1-1.1. heyvandarlıqda istehsalın və məhsuldarlığın artırılması sahəsində xidmətlərin həyata keçirilməsini;

7.1-1.2. heyvan xəstəliklərinin profilaktikası, diaqnostikası, müalicəsi və ləğvi ilə bağlı xidmətlərin təşkili və göstərilməsini;

7.1-1.3. heyvanların sağlamlığının qorunması ilə bağlı tədbirlərin görülməsini, heyvan xəstəliklərinin baş verməsinin və yayılmasının qarşısının alınması üçün dezinfeksiya, dezinseksiya və deratizasiya işlərinin aparılmasını;

7.1-1.4. xüsusi təhlükəli xəstəliklərə qarşı baytarlıq preparatlarının ehtiyatının yaradılmasını, büdcə vəsaiti hesabına alınmış baytarlıq preparatlarının, o cümlədən onların ehtiyatı da nəzərə alınmaqla bölgüsünü, saxlanmasını, daşınmasını və istifadəsini;

7.1-1.5. epizootiya əleyhinə hazırlanan tədbirlər planına dair təkliflərin verilməsini və icrası ilə bağlı tədbirlərin görülməsini.";

4.2. 11-ci maddə üzrə:

4.2.1. 11.1-ci maddəyə "dair" sözündən sonra "(dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilmiş yüklər (mallar, məhsullar) üzərində baytarlıq nəzarəti ilə bağlı tədbirləri isə gömrük orqanları ilə birlikdə)" sözləri əlavə edilsin;

4.2.2. 11.2.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 11.2.9 - 11.2.12-ci maddələr əlavə edilsin:

"11.2.9. baytarlıq preparatlarının aprobasiyasını, ekspertizasını, sınağını, dövlət qeydiyyatına alınmasını və dövlət reyestrinin aparılmasını;

11.2.10. heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) ekspertizasını;

11.2.11. dövlət baytarlıq nəzarətinə cəlb edilən məhsulların istehsalı, tədarükü, saxlanması, emalı və satışı, habelə daşınması ilə bağlı dövlət baytarlıq nəzarəti obyektlərinin yerləşdirilməsinə, tikintisinə, bərpasına və istismara verilməsinə rəy verilməsini;

11.2.12. dövlət baytarlıq nəzarətində olan yüklərin baytarlıq sənədlərinin yoxlanılmasını və onlara baxış keçirilməsini.";

4.3. 13.1.5-ci maddəyə "ödənilməklə" sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri əlavə edilsin;

4.4. 14.1-ci maddənin birinci cümləsinə "qaydada" sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) (dövlət sərhədinin buraxılış məntəqələrində istisna olmaqla)" sözləri əlavə edilsin;

4.5. 15-ci maddə üzrə:

4.5.1. 15.1-ci maddəyə "tranziti" sözündən sonra "(dövlət sərhədinin buraxılış məntəqələrində istisna olmaqla)" sözləri əlavə edilsin;

4.5.2. 15.2.3-cü maddəyə "keçirilməsini" sözündən sonra "(dövlət sərhədinin buraxılış məntəqələrində istisna olmaqla)" sözləri əlavə edilsin;

4.6. 16.2-ci maddəyə "nəzarətini" sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin;

4.7. 19.0.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"19.0.5. istifadəsində olan heyvanların identikləşdirilməsini (kodlaşdırılmasını) və heyvanlar üçün yem və bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatını təmin etmək;";

4.8. 21-ci maddə üzrə:

4.8.1. 21.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Heyvanlarda xüsusi təhlükəli xəstəliklər aşkar edilərsə və ya belə xəstəliklərin baş verməsi təhlükəsi yaranarsa, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu barədə dərhal məlumatlandırılır.";

4.8.2. 21.2-ci maddənin birinci cümləsinə "qərarı ilə" sözlərindən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri əlavə edilsin;

4.8.3. 21.4-cü maddəyə "qanunla müəyyən edilmiş qaydada" sözlərindən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə" sözləri əlavə edilsin;

4.8.4. 21.5-ci maddənin birinci cümləsinə "məqsədilə" sözündən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) iştirakı ilə müvafiq icra hakimiyyəti orqanının qərarı ilə" sözləri əlavə edilsin;

4.9. 24.1-ci maddəyə "qanunla müəyyən olunmuş qaydada" sözlərindən sonra "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri əlavə edilsin;

4.10. 26-cı maddə üzrə:

4.10.1. adı aşağıdakı redaksiyada verilsin:

"Heyvanların identikləşdirilməsi (kodlaşdırılması) və heyvanlar üçün yem və bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı";

4.10.2. 26.2-ci maddədə "Dövlət baytarlıq nəzarətində olan məhsulların istehsal, tədarük (kəsim), emal, saxlanma və satış obyektlərinin, bazarların və digər baytarlıq nəzarəti obyektlərinin" sözləri "Heyvanlar üçün yem və bioloji preparatlar istehsalı obyektlərinin" sözləri ilə əvəz edilsin;

4.11. 36-cı maddə üzrə:

4.11.1. 36.1-ci maddədə "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin;

4.11.2. 36.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Hər hansı bir mikroorqanizm və parazitar xəstəliklər törədiciləri ştammlarının Milli Kolleksiyada saxlanmasına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən razılıq verilir.";

4.11.3. aşağıdakı məzmunda 36.6-cı maddə əlavə edilsin:

"36.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) baytarlıq sahəsində elmi tədqiqatların təşkili və nailiyyətlərinin tətbiqi məqsədilə tədbirlər həyata keçirir.";

4.12. 38-ci maddə ləğv edilsin;

4.13. 39-cu maddə üzrə:

4.13.1. 39.2-ci maddədə "aşağıdakı tədbirlər" sözləri "aşağıdakı baytarlıq xidməti və nəzarəti tədbirləri" sözləri ilə əvəz edilsin;

4.13.2. 39.2.2-ci maddədə ", heyvandarlıq müəssisələrinin, bazarların, dövlət baytarlıq nəzarətində olan yüklərin istehsalı, tədarükü, saxlanması, emalı və satışı yerlərinin, həmçinin" sözləri "və" sözü ilə əvəz edilsin;

4.13.3. aşağıdakı məzmunda 39.5-ci maddə əlavə edilsin:

"39.5. Bu Qanunun 39.2-ci maddəsində nəzərdə tutulmuş baytarlıq xidməti və nəzarəti tədbirlərinə ("Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tədbirlər istisna olmaqla) görə alınan xidmət haqqının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

**Maddə 5.** "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 700; 2013, № 3, maddə 206, № 11, maddə 1293; 2014, № 11, maddə 1367; 2016, № 7, maddə 1238; 2017, № 5, maddə 714) 6.0.4-cü maddəsində "təbabətində" sözü "xidmətində" sözü ilə əvəz edilsin.

**Maddə 6.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1552-VQD nömrəli Qanunu) 1 nömrəli əlavə - "Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı"nın 20-ci maddəsində "təbabəti" sözü "xidməti" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 iyun 2019-cu il*

# "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1616-VQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişiklik edilməsi və "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" 2007-ci il 11 aprel tarixli 562 nömrəli Fərmanının ləğvi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1616-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 36.3-cü maddəsinin ikinci cümləsində və 39.5-ci maddəsində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nin 93-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi həyata keçirirlər.

3. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1011; 2008, № 8, maddə 718; 2009, № 8, maddə 630; 2010, № 3, maddə 186; 2015, № 7, maddə 841; 2018, № 4, maddə 672, № 12 (I kitab), maddə 2553) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 13.1.5-ci maddəsində, 14.1-ci maddəsinin birinci cümləsində, 16.2-ci, 18.3-cü maddələrində, 21.1-ci maddəsinin ikinci cümləsində, 21.2-ci maddəsinin birinci cümləsində (ikinci halda), 21.4-cü maddəsində, 21.5-ci maddəsinin birinci cümləsində (birinci halda), 24.1-ci, 33.9-cu, 36.1-ci maddələrində, 36.3-cü maddəsinin ikinci cümləsində, 36.6-cı maddəsində, 39.4-cü maddəsinin birinci (hər üç halda) və ikinci cümlələrində, 39.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. 2.2-ci bəndə "15.4-cü" sözlərindən əvvəl "6.0.8-1-ci," sözləri əlavə olunsun və həmin bənddə "21.2-ci (birinci və ikinci cümlələrdə), 21.5-ci (ikinci cümləsində)" sözləri "21.2-ci (birinci cümlədə birinci halda və ikinci cümlədə), 21.5 ci (birinci cümlədə ikinci halda və ikinci cümlədə)" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 2.2-1-ci və 2.3-1-ci bəndlər əlavə edilsin:

"2.2-1. həmin Qanunun 7.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidməti həyata keçirirlər;";

"2.3-1. həmin Qanunun 36.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;";

3.4. 2.7-1-ci bəndə "Qanunun" sözündən sonra "13.1.5-ci maddəsində, 14.1-ci maddəsinin birinci cümləsində, 16.2-ci maddəsində, 21.1-ci maddəsinin ikinci cümləsində, 21.2-ci maddəsinin birinci cümləsində, 21.4-cü və 24.1-ci maddələrində "orqan (qurum)"," sözləri əlavə edilsin;

3.5. 2.8-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.9-cu və 2.10-cu bəndlər əlavə edilsin:

"2.9. həmin Qanunun 21.5-ci maddəsinin birinci cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Qanunun 36.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Milli Elmlər Akademiyası nəzərdə tutulur.".

4. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 562 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 324; 2015, № 7, maddə 841; 2016, № 2 (II kitab), maddə 251) ləğv edilsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında", "Dövlət rüsumu haqqında", "Baytarlıq haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 avqust 2019-cu il*

# Qəbələ festivalında Oksana Yablonskayanın 80 illiyinə həsr olunmuş kamera konserti təqdim edilib







XI Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində avqustun 2-də Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə dünya şöhrətli pianoçu Oksana Yablonskayanın 80 illiyinə həsr olunmuş "Oksana Yablonskaya və dostları" adlı konsert proqramı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, konsertdə SSRİ Xalq artisti, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, XI Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri Fərhad Bədəlbəyli çıxış edərək O.Yablonskayanın həyat və yaradıcılığı barədə məlumat verib. Bildirilib ki, pianoçu Oksana Yablonskaya (İsrail-ABŞ) Moskva şəhərində anadan olub. O, Moskva Musiqi Mərkəzi məktəbində A.Qoldenveyzerdən dərs alıb, Moskva Dövlət Konservatoriyasında assistent kimi çalışıb. C.Lonq-Zibaud, Rio de Janeyro, Bethoven müsabiqələrinin qalibi olub. "Carnegie Hall"dakı debütündən sonra dünyanın tanınmış pianoçuları sırasına qoşularaq 40-dan çox ölkənin simfonik orkestr və dirijorları ilə çıxış edib. Onun solo yazıları Beynəlxalq List Cəmiyyəti tərəfindən Qran-Pri mükafatına layiq görülüb.

Diqqətə çatdırılıb ki, O.Yablonskaya 25 ildir Culliard məktəbində dərs deyir. O, dünyanın bir çox tədris mərkəzlərində ustad dərsləri verib. Nyu Yorkda Şopen Cəmiyyətinin vitse-prezidenti və musiqi direktoru, Yamaha ustad dərslərinin məsləhətçisidir. San-Fransisko Beynəlxalq İncəsənət Akademiyası və Moskva Humanitar Elmlər Akademiyasının akademikidir. O.Yablonskaya L.Vasilenko adına, Bethoven Piano, List Beynəlxalq piano və digər müsabiqələrin münsiflər heyətinin üzvü olub. 2008-ci ildə İtaliyada O.Yablonskayanın Piano İnstitutu açılıb.

O.Yablonskaya, eyni zamanda, Bakı Musiqi Akademiyasının dəvətli məsləhətçisi, Qəbələ Beynəlxalq piano müsabiqəsinin münsiflər heyətinin sədridir.

Kamera konsertində Oksana Yablonskaya, ABŞ-dan olan pianoçular Ninq-Vu Du, Helen Sim, Ukraynadan gəlmiş violonçel ifaçısı Yuri Poqoretski və pianoçu İrina Starodub, həmçinin pianoçular Fərhad Bədəlbəyli, Murad Adıgözəl-zadə, solist Səbinə Əsədova tamaşaçılar qarşısında maraqlı konsert proqramı ilə çıxış ediblər.

Konsertdə L.Bethoven, F.Şopen, F.Şubert, R.Şuman, S.Raxmaninov, Q.Qarayev və F.Əmirovun əsərləri səsləndirilib.

# Ötən ilin iyul ayı ilə müqayisədə elektrik enerjisinin istehsalı və ixracı xeyli artırılıb




Ötən ilin iyul ayı ilə müqayisədə 2019-cu ilin iyul ayında elektrik enerjisinin istehsalı və ixracı əhəmiyyətli dərəcədə artıb. Belə ki, 2019-cu ilin iyul ayında 2,13 milyard kVts elektrik enerjisi istehsal edilib ki, bu da 2018-ci ilin iyul ayı ilə müqayisədə 50 milyon kVts və ya 2,4 % çoxdur.

Ötən ilin iyul ayı ilə müqayisədə qonşu dövlətlərə elektrik enerjisinin ixracı da dəfələrlə artıb. Bunun isə əsas səbəbi ötən ilin iyul ayında enerji sistemində qəza baş verməsi nəticəsində yaranan böhran, bu il isə "Reabilitasiya Proqramı" çərçivəsində görülən işlər nəticəsində elektrik stansiyalarının texniki imkanlarının müəyyən qədər artması qonşu dövlətlərə, xüsusilə Gürcüstana müqavilə əsasında daha çox elektrik enerjisi tədarük edilməsini şərtləndirib. Belə ki, ötən ilin iyul ayında qonşu dövlətlərə 10,4 milyon kVts elektrik enerjisi ixrac edildiyi halda, bu il 101,8 milyon kVts elektrik enerjisi ixrac edilib.

***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanda minimum pensiya alıcılıq qabiliyyətinə görə MDB-də birinci olacaq

"Minimum əməkhaqqında demək olar ki, iki dəfə artım, minimum pensiyada 72 faizlik artım nəticəsində Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci göstərici olacaq".

Bu sözləri iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı Prezident İlham Əliyevin yanında keçirilən müşavirədə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev deyib. Nazir həmçinin bildirib ki, bu il Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə iki böyük sosial islahat paketi qəbul edilib. Birinci paket 3 milyon nəfəri əhatə edib və onun illik maliyyə tələbi 1,6 milyard manat olub. Həmin paket artıq tam şəkildə icra edilib, yəni həm pensiyaçıların, həm də işləyən insanların əməkhaqları artırılıb.

S.Babayevin sözlərinə görə, ikinci sosial paketin də icrası ilə bağlı heç bir problem yoxdur. Belə ki, sentyabrın 1-dən etibarən minimum əməkhaqqının 250 manata çatdırılması, dövlət sektorunda çalışan əlavə 400 min insanın kateqoriyalarından asılı olaraq 20-50 faiz aralığında əməkhaqlarının artırılması, eləcə də oktyabrın 1-dən 750 min pensiyaçının təqaüdünün artırılması ilə bağlı hazırlıq işləri artıq başa çatıb.

## Vergi yoxlamalarının sayı dəfələrlə azalmışdır

Prezidentin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə çıxış edən Vergilər naziri Mikayıl Cabbarov bu məsələdən ətraflı danışmışdır.

Nazir qeyd etmişdir ki, vergi nəzarəti tədbirlərinin azalması onların qarşısında duran əsas məsələlərdəndir. "2018-ci illə müqayisədə vergi yoxlamalarının sayı 2,7, 2017-ci illə müqayisədə isə 6 dəfə azaldılıb. Sevindirici hal ondan ibarətdir ki, biz həmişə özəl sektoru ümumiyyətlə, iqtisadiyyatın, vergi siyasətinin və inzibatçılığın təsirində izləməyə çalışırıq" deyən M.Cabbarov onu da vurğulamışdır ki, özəl sektorun bank sistemində Azərbaycan manatı ilə olan hesabatlarında qalıq artımı sürətlə çoxalır: "Bir il ərzində 49, ilin əvvəlindən isə 20 faiz artıb. Bu da hesab edirik ki, həm biznesin nağdlaşmadan əməliyyatlara keçməsinin, həm də ölkə iqtisadiyyatına olan inamın göstəricisidir".



## Hədəfimiz məhsuldarlığı 60 sentnerə çatdırmaqdır

Pambıqçılıqda həlledici dövrdür. Qayğı ilə becərilən yaşıl kollar sürətlə bara dolur. İndi hər kolda orta hesabla 7-8 qoza var. Amma bu, hər gün dəyişir, təzə bar orqanları formalaşır.

1979-cu ildən pambıqçılıq sahəsində çalışıram. Çəkdiyim zəhmət heç vaxt hədər getməyib. Əmək bəhsində həmişə ön sıralarda olmuşam. Keçən il qazandığımız nəticə isə xüsusilə sevindiricidir. 50 hektar sahədə pambıq əkib-becərdik. Hər hektarın məhsuldarlığı orta hesabla 57 sentnerə çatdı ki, bu da ölkə üzrə ən yüksək göstəricilərdən oldu. İstehsal etdiyimiz 285 ton pambığın hər kiloqramını 75 qəpiyə satıb yaxşı qazanc götürdük.

Bizə səmərəli işləmək, böyük uğurlar qazanmaq üçün stimul verən Prezident İlham Əliyevin qayğı və diqqətidir. Pambıqçılıq sahəsində əldə etdiyim nailiyyətlərə görə 2017-ci ildə dövlət başçısının sərəncamı ilə birinci dərəcəli "Əmək ordeni" ilə təltif olunmuşam. Əməyimizə verilən bu yüksək qiymət heç şübhəsiz məni daha böyük nailiyyətlərə ruhlandırır. Builki hədəfimiz məhsuldarlığı 60 sentnerə çatdırmaqdır. Məqsədimizə nail olmaq üçün bütün gücümüzü səfərbər etmişik.

Öz təcrübəmə əsaslanıb deyə bilərəm ki, pambıqçılıqda, eləcə də digər sahələrdə uğur qazanmaq üçün mütərəqqi üsullara, yeni texnologiyaya üstünlük vermək əsas şərtdir. Biz öz fəaliyyətimizdə bu tələbə ciddi əməl etməyə çalışırıq. Becərmədə və yığılmada texnikaya geniş meydan verir, bu hesaba yaxşı nəticələr qazanırıq. Keçən il istehsal etdiyimiz məhsulun hamısını texnikanın gücü ilə yığdıq. Bu, çox sərfəlidir - həm məhsulun maya dəyəri aşağı olur, həm də yığım müddəti qısalır, itkilər azalır. Çox istərdik ki, pambıqçı dostlarım öz fəaliyyətlərində bu cəhəti nəzərə alsınlar.

***Tofiq İSMAYILOV,***
***Ağcabədi rayonu,***
***Yeni Qaradolaq kəndi, fermer***

## ARDNF-in aktivləri 10,2 faiz artaraq 42,6 milyard dollara çatıb

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) 6 ay üzrə gəlir və xərclərini açıqlayıb. Bildirilir ki, fondun bu müddətdə büdcə gəlirləri 10 milyard 698,3 milyon, büdcə xərcləri 4 milyard 499,4 milyon manat olub.



6 ayda ARDNF-in neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri isə 8 milyard 557,1 milyon, o cümlədən mənfəət neftinin və qazın satışından 7 milyard 780,7 milyon, bonus ödənişləri 766,4 milyon, tranzit gəlirləri 8,9 milyon, akrhesabı ödənişlər 1,1 milyon manat təşkil edib.

Hesabat dövründə ARDNF-in vəsaitinin idarə olunmasından əldə edilən gəlirlər 2 milyard 141,2 milyon manata çatıb. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı büdcədənkənar gəlirlər isə 513,1 milyon manat olub.

Hesabat dövründə fondun 2019-cu il büdcəsinin icrası çərçivəsində 4 milyard 413 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib, qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 74,9 milyon manat vəsait ayrılıb. ARDNF-in idarə edilməsi ilə bağlı xərcləri isə 11,5 milyon manat olub.

İyunun 30-a ARDNF-in aktivləri cari ilin əvvəlinə nisbətən 10,25 faiz artaraq 42 milyard 463,7 milyon dollar təşkil edib. Aktivlərin artımı ARDNF-in büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlər hesabına olub. Müvafiq dövr ərzində ən yüksək gəlirlilik səhm alt portfelində müşahidə olunmaqla investisiya portfelinin hər bir tərkib aktiv növü üzrə müsbət gəlirlilik qeydə alınıb. Belə ki, səhm alt portfeli üzrə ötənilki mənfi gəlirliliyə baxmayaraq (-6,6 faiz), bu ilin 6 ayı ərzində müvafiq göstərici 13,1 faiz olub.

## Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb

*Əvvəli 1-ci səh.*

Ölkədə qazlaşdırmanın səviyyəsi 96 faizə çatıb. Dünyada qazlaşdırmanın belə uğurla aparıldığı ölkələr o qədər də çox deyil. Elektrik enerjisi sahəsində böyük generasiya gücləri yaradılıb. Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib, yəni bu sahədə də ön sıralardadır.

Regionların inkişafında içməli su və meliorasiya layihələrinin uğurlu icrası da böyük rol oynayır. Hazırda demək olar ki, bütün bölgələrdə içməli su layihələri icra edilir. Bu il daha bir neçə şəhərin içməli su problemi həll olunacaq. Torpaqların suvarılması istiqamətində də əlavə tədbirlər görüləcək. Belə ki, hər il təxminən 100 min hektar torpağın suvarılması yaxşılaşır, yaxud suvarılan torpaqlara su çəkilir. Bu işlər də davamlı xarakter daşıyır.

Prezidentin yanında keçirilən müşavirədə həmçinin qeyd edilib ki, dövlət proqramı regionlarda kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, infrastruktur təminatının yaxşılaşdırılması ilə yanaşı, sosial infrastrukturun genişlənməsinə də təkan verir. Kənd yerləri də əhatə olunmaqla məşğulluğun təmin edilməsi istiqamətində mühüm addımlar atılır. Yeni regionlarda yaradılan biznes mühiti, kənd təsərrüfatı və sənayenin inkişafı üçün qurulan infrastruktur öz real nəticəsini verir, rayon və kəndlərdə məşğulluğun təminatında böyük rol oynayır.

Prezident İlham Əliyev bunları bir daha vurğulamışdır: "Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bunu göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır. Bununla paralel olaraq, biz sosial sahəyə də çox böyük diqqət göstəririk. Bu il reallaşan layihələr - milyardlarla dollar həcmində ölçülən bu layihələr, bu təşəbbüslər bizim niyyətimizi, bizim siyasətimizi göstərir. Göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir. Biz bundan sonra da bu yolla gedəcəyik".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İlin əvvəlindən AMB-nin valyuta ehtiyatları 330 milyon dollar artıb



"Cari ildə biz valyuta ehtiyatlarımızı 330 milyon dollardan çox artırmışıq. Bu vəsaitin təxminən 100 milyon dollardan çoxunu 6 ayda xarici idarəetmədən almışıq, baxmayaraq ki, beynəlxalq maliyyə bazarında vəziyyət kifayət qədər mürəkkəbdir və faiz dərəcələri aşağıdır".

Prezidentin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə bu barədə danışan Azərbaycan Mərkəzi Bankı (AMB) İdarə Heyətinin sədri Elman Rüstəmov bildirmişdir ki, AMB cari ili 3,2 faiz gəlirlə başa vurmağı planlaşdırır. Sədr onu da əlavə etmişdir ki, bütövlükdə manatın məzənnəsi sabitdir: "Xarici balansın müsbət olması, ixracın şaxələndirilməsi istiqamətində görülən işlər və valyuta təklifinin genişlənməsi, eləcə də bazarda müsbət gözləntilər daxili valyuta bazarında əhəmiyyətli profisit yaradıb... Bütövlükdə bu gün Mərkəzi Bankın strelizasiyası ilə birlikdə daxili valyuta bazarında 1 milyard ABŞ dollarından çox profisit mövcuddur. Bu isə manatın məzənnəsinin nəinki bugünkü sabitliyinə, həm də bütövlükdə gözlənilən sabitliyinə təminat verir".

Çıxışında inflyasiya faizinə toxunan AMB sədri onu da qeyd etmişdir ki, bu məsələ üzrə hədəf diapazonu həm hökumətin, həm də Mərkəzi Bankın gözləntilərindən də aşağı səviyyədədir. "Baxmayaraq ki,... olduqca presedentsiz sosial tədbirlər həyata keçirilir, sosial siyasət gücləndirilir, daxili tələbat genişləndirilir, lakin bütövlükdə idarəetmənin yaxşılaşdırılması, görülən tədbirlər və manatın məzənnəsinin sabitliyi inflyasiyanın aşağı səviyyədə formalaşmasını şərtləndirir" deyə E.Rüstəmov bildirmişdir.

# 6 ayda ölkə üzrə qeyri-neft məhsullarının ixracı 15 faiz artıb

*Əvvəli 1-ci səh.*

İxrac edilən qeyri-neft məhsullarının siyahısına pomidor (138,1 milyon dollarlıq) birinci, pambıq mahlıcı (74,9 milyon dollarlıq) ikinci və qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal edilməmiş formalarda - 70,4 milyon dollarlıq) üçüncü yerdə qərarlaşıb.

Ümumiyyətlə, hesabat dövründə meyvə-tərəvəzin ixracı 318,4 milyon, plastmas və onlardan hazırlanan məmulatların ixracı 103,3 milyon, pambıq lifi ixracı 75,7 milyon, elektrik enerjisinin ixracı 51,9 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 46,7 milyon, kimya sənayesi məhsullarının ixracı 45,6 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 30 milyon, pambıq ipliyi ixracı 14,6 milyon, alkoqollu və alkoqolsuz içkilərin ixracı 15,5 milyon dollarlıq olub. Həmçinin ötən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-iyun aylarında pambıq lifinin ixracı 2,6, alkoqollu və alkoqolsuz içkilərin ixracı 2,2 dəfə, kimya sənayesi məhsullarının ixracı 49, pambıq ipliyinin ixracı 47, plastmas və onlardan hazırlanan məmulatların ixracı 44, meyvə-tərəvəzin ixracı 15 faiz artıb.

İcmalda həmçinin bildirilir ki, keçən ay qeyri-neft sektoru üzrə ixracın dəyəri 192 milyon dollar təşkil edib. Ötən ilin iyun ayı ilə müqayisədə qeyri-neft məhsullarının ixracı 13 milyon dollarlıq və ya 7 faiz artıb. Cari ilin iyun ayında qeyri-neft sektoruna aid ən çox mal Rusiyaya (93,8 milyon dollarlıq), Türkiyəyə (32,5 milyon dollarlıq), İsveçrəyə (14,7 milyon dollarlıq), Gürcüstana (8,4 milyon dollarlıq) və Ukraynaya (5,7 milyon dollarlıq) ixrac olunub.




2019-cu ilin may ayında olduğu kimi, iyun ayında da qeyri-neft sektoru üzrə ixracda pomidor (33,8 milyon dollarlıq) birinciliyini qoruyub. Siyahıda albalı və gilas (29,6 milyon dollarlıq) ikinci, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal edilməmiş formalarda - 13,5 milyon dollarlıq) üçüncü yerdə qərarlaşıb.

"İxrac İcmalı"nın iyul sayında qeyri-neft sektoru üzrə əsas ixracatçı şirkətlərin reytinqi də açıqlanıb. Yanvar-iyun ayları üzrə hazırlanan bu reytinqdə qeyri-dövlət ixracatçı subyektlər arasında "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Socar Polymer" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Nine Climate" MMC, "Global Export Fruits" MMC, "Caspian enerji-2020" MMC, "P-Aqro" MMC, "Baku Steel Company", "Sun Food" MMC, "Food Export Şəmkir" MMC fərqləniblər.

Qeyri-dövlət ixracatçı subyektlərindən fərqli olaraq dövlətə məxsus şirkətlərin siyahısı əvvəlki kimi dəyişməz qalıb. Bu siyahıya ənənəvi olaraq ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Sonrakı yerləri isə "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "CTS-Agro" MMC, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, Dövlət Material Ehtiyatları Agentliyi, "Bakı Neft Maşınqayırma Zavodu" TASC bölüşdürürlər.

İcmalda həmçinin xidmət ixracına yer ayrılıb. Məlumat verilib ki, 2019-cu ilin yanvar-iyun aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 19 ölkəsinə 18,6 milyon dollar dəyərində peyk telekommunikasiya və optik peyk xidmətləri ixrac olunub. ASC-nin xidmət ixracından əldə etdiyi qazanc onun ümumi gəlirlərinin 87,5 faizini təşkil edib. Ötən ay isə "Azərkosmos" ASC dünyanın 18 ölkəsinə 2,5 milyon dollarlıq xidmət göstərib. ASC-nin 2019-cu ilin yanvar-iyun aylarında xidmətindən istifadə edən əsas ölkələr ABŞ, Fransa, Malayziya olub.

Cari ilin ilk 6 ayı ərzində Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə də icmalda məlumat verilib. Bildirilir ki, portala göstərilən müddət ərzində 303,1 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə ixrac sifarişləri 6,6 faiz artıb. Ötən ay portala daxil olan ixrac sifarişlərinin dəyəri isə 41,3 milyon dollara çatıb ki, bu da ötən ilin iyun ayı ilə müqayisədə 20,8 faiz çoxdur.

Bu ilin birinci yarısında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya (11,9 faiz), Türkiyə (6,6 faiz), Hindistan (5,7 faiz), ABŞ (5,5 faiz) və İngiltərə (5,3 faiz) qərarlaşıb. Keçən ay ən çox ixrac sifarişi isə pambıq, tütün, toyuq əti və yumurtası, qənnadı məhsulu, soğan, çay, şərab, mühərrik yağı, nar şirəsi, kompot, mebel dəsti, tikinti materialı, naftalan yağı, bal, uşaq iç geyimi, gül və s. mallar üzrə olub. İcmalda xatırlanır ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 30 iyun tarixinə kimi (30 ay ərzində) Azexport.az portalına dünyanın 133 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 1 milyard 292,2 milyon dollar təşkil edib.

"İxrac İcmalı"nda bu ilin iyul ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən qeyri-neft məhsullarının ixracının dəyəri (12,1 milyon dollar) haqqında da məlumat verilib. Həmçinin 2019-cu ilin yanvar-iyul ayları ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən yüzlərlə sahibkara ixracla bağlı müvafiq sertifikatlar verildiyi və bunun nəticəsində 71,8 milyon dollar dəyərində qeyri-neft məhsullarının ixrac olunduğu barədə rəqəm açıqlanıb.

***"Azərbaycan"***

## Bu il 10 min ailənin Özünüməşğulluq Proqramına cəlb olunması nəzərdə tutulur

Keçən il 6 min ailə mikro və kiçik biznesə başlamaq üçün aktivlərlə təmin edilmişdir. Bu il isə İşsizlikdən Sığorta Fondunun büdcəsinə edilən müvafiq dəyişiklik nəticəsində əlavə vəsaitin cəlb olunması hesabına 10 min ailənin Özünüməşğulluq Proqramına qoşulması gözlənilir.

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Prezidentin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə məlumat verib. Nazir həmçinin bildirib ki, əhalinin sözügedən proqrama marağı çoxdur və bu səbəbdən müraciətlərin sayı sürətlə artır: "Cari ilin ilk 6 ayı ərzində 45 minə yaxın müraciət gəlib. Bunları nəzərə alaraq ötən ildən növbədə qalan insanlara, bu il müraciət edənlərin arasında isə əlilliyi olan şəxslərə, məcburi köçkünlərə, şəhid ailələrinə və həssas kateqoriyadan olanlara üstünlük verilir. Artıq 4 min nəfər bu il təlimlərdən keçirilib, 1100 nəfər aktivlər əldə edib" deyən S.Babayev onu da nəzərə çatdırıb ki, bu çərçivədə əlavə olaraq BMT-nin İnkişaf Proqramı layihəyə qoşulub və 1000 nəfərə yaxın ailə məhz BMT-nin sözügedən proqramına cəlb olunacaq.

Nazirin sözlərinə görə, Prezidentin tapşırığına uyğun olaraq bu məsələ barədə Dünya Bankı ilə aparılan müzakirələr də yekun mərhələsinə çatmışdır: "Sentyabr ayında Dünya Bankı layihə təklifini Azərbaycan hökumətinə təqdim edəcək və gələn ildən bu layihəyə qoşulacaq".

## Dağ kəndlərində yeni müəssisələr istifadəyə verilib

Azərbaycan hökuməti və Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən birgə həyata keçirilən "Sosial-iqtisadi inkişaf fəaliyyəti" (SEDA) layihəsi çərçivəsində Yardımlı rayonunun Sırıq kəndində yem emalı müəssisəsi fəaliyyətə başlayıb.

Bununla bağlı İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə keçirilmiş tədbirdə USAİD-ın və Yardımlı Rayon İcra Hakimiyyətinin nümayəndələri, kənd sakinləri iştirak ediblər. Qeyd olunub ki, regionlarda bu cür müəssisələrin istifadəyə verilməsi heyvandarlıq təsərrüfatlarının inkişafı, yemə olan tələbatın ödənilməsi və yeni iş yerlərinin açılması baxımından əhəmiyyətlidir.

Rayonun Gavran kəndində isə sözügedən layihə çərçivəsində inkubator məntəqəsi istifadəyə verilib.

## Paytaxt sənayesində qeyri-dövlət sektorunun payı 83,9 faizə çatıb



Yanvar-iyun aylarında Bakıda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz artaraq 19,9 milyard manat təşkil edib.

AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinin yaydığı məlumata istinadla xəbər verir ki, sənaye məhsulunun 16,7 faizi emal sektorunda istehsal olunub. Sənayedə qeyri-dövlət sektorunun payı 83,9 faizə çatıb. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 88,9 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 11,1 faiz olub.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında iyulun 1-nə cəmi 253,3 milyon manatlıq hazır məhsul ehtiyatı qalıb.

# Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri sosial ədalət siyasəti ilə birləşib

## İlham Əliyevin sistemli islahatlarının nəticəsində respublikamız beynəlxalq aləmdə həm də modern dövlət kimi tanınır

Əvvəli 1-ci səh.

2003-cü ildən bugünədək orta aylıq əməkhaqlarının 7,5 dəfə, pensiyaların 10 dəfədən çox, həssas qruplara yönələn müavinət və təqaüdlərin dəfələrlə artırılması, yoxsulluğun 5 faizə enməsi də təsdiqləyir ki, cənab İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Ümumiyyətlə isə 2003-cü ilə nisbətən ölkə üzrə minimum əməkhaqqı 27,7 dəfə artırılaraq 250 manata, orta aylıq əməkhaqqı isə 7,5 dəfə artaraq 77,4 manatdan 581,2 manata çatıb.

Prezidentin son 6 ay ərzində maaş və pensiyaların, təqaüdlərin, müavinətlərin artırılması ilə bağlı imzaladığı sərəncamlar Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsipləri dayandığının növbəti təsdiqi oldu. Dövlət başçısının təqdim etdiyi iki sosial paketi əhalinin rifahının yüksəldilməsi istiqamətində inqilabi addımlar hesab etmək olar. Dövlət başçısının bu ilin ilk aylarında təqdim etdiyi birinci sosial islahatlar paketi nəticəsində minimum əməkhaqqı martın 1-dən 40 faizədək artırılaraq 130 manatdan 180, pensiyanın minimum məbləği isə 40 faizədək artırılaraq 116 manatdan 160 manata çatdırılıb. Bu gün həmin artımlardan 830 min insan yararlanır.

Həmçinin aprelin 1-dən 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər, 9 kateqoriyaya aid şəxslər üzrə isə Prezidentin aylıq təqaüdlərinin məbləği orta hesabla 100 faiz artırılıb. Sosial təminat sisteminin əhatə dairəsi daha da genişləndirilib, 2 yeni təqaüd növü - sağlamlıq imkanları məhdud uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin aylıq təqaüdü təsis olunub. Habelə aylıq sosial müavinət alan I dərəcə əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü pensiya alan I dərəcə əlilliyi olan şəxslərə də şamil edilib. Sayı 80 minədək olan müharibə veteranlarına aylıq təqaüdlər təsis olunub. Sosial müavinət və təqaüd artımları, təsis olunan yeni təqaüdlər 300 mini əlilliyi olan şəxslərdən ibarət 600 minədək vətəndaşın rifahını yaxşılaşdırıb. Bunlardan əlavə, məcburi köçkünlərin aylıq müavinəti 50 faiz artırılıb, 800 min vətəndaşın problemli kreditləri həll olunub, tələbələrin təqaüdlərində əhəmiyyətli artımlar edilib. Ümumilikdə cari ilin ilk rübündə reallaşdırılan və artımların təmin edilməsi üçün əlavə olaraq dövlətin illik 1,9 milyard manat maliyyə yükünü üzərinə götürdüyü birinci sosial paket 3 milyona yaxın insanın rifahına mühüm dəstək oldu.

Prezident İlham Əliyevin ikinci sosial paketini əhatə edən 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü isə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində inqilabi addımların ardıcıl xarakter aldığını göstərir. Bu sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların maaşlarının artırılması təmin olunub.

"Minimum aylıq əməkhaqqının artırılması haqqında" sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği gələn ayın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Beləliklə cari ildə reallaşan iki sosial paket nəticəsində Azərbaycanda minimum əməkhaqqının məbləği 93 faiz artırılmış olacaq. Bununla ölkəmizdə ilk dəfə olaraq minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) üstələyəcək. Yəni minimum səviyyədə olan əməkhaqqı belə yaşayış minimumundan 70 manat və ya 40 faiz çox olacaq. Minimum əməkhaqqının bu artımı 950 min nəfərin maaşlarının artımına səbəb olacaq ki, onlardan da 600 mini dövlət, 350 mini qeyri-dövlət sektorunda çalışanlardır.

İyulun 31-də Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə dövlət başçısı vurğulayıb ki, təsdiqlənən böyük sosial paket və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edib. Dövlətin əlavə gəlirlərinin tam həcmi sosial sahəyə yönəldilir və bu proses davam edəcək: "Çox önəmli addımlar atılıb - minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artıb, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bu da çox əhəmiyyətli artımdır və əlbəttə ki, buna böyük maliyyə vəsaiti lazımdır. Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir".

İmzalanan digər sərəncamlarla, eyni zamanda dövlət sektorunda işləyən müəllimlər, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanlar, hərbi qulluqçular, hüquq mühafizə orqanları əməkdaşları, həm ümumi, həm də xüsusi növ üzrə dövlət qulluqçuları, hakimlər və digərlərindən ibarət 400 min nəfərin əməkhaqları da cari il sentyabrın 1-dən 20-100 faiz səviyyəsində artırılacaq. Ümumilikdə ikinci sosial paket 1 milyon 350 min nəfəri əhatə edir ki, onlardan da 1 milyonu dövlət, qalanları özəl sektorda işləyənlərdir. Onu da qeyd edək ki, 2019-cu ildə reallaşan iki sosial paket nəticəsində minimum əməkhaqqının və dövlət sektorunda işləyənlərin əməkhaqlarının artımı üçün dövlət tərəfindən illik 2 milyard manat vəsait ayrılması nəzərdə tutulur.

Göründüyü kimi, Prezident İlham Əliyevin sosial siyasətinin davamı kimi cari ilin ötən dövründə həyata keçirilən və əhalinin rifah halının yaxşılaşdırılmasını təmin edən iki mühüm sosial islahat paketi 4 milyon 200 min vətəndaşı əhatə edir. Bu sərəncamların icrası üçün dövlət tərəfindən əlavə olaraq illik 3,9 milyard manat vəsait ayrılacaq.

Atılan bu addımlar bir daha təsdiqləyir ki, özünü dünyaya sosial dövlət kimi təqdim edən Azərbaycan vətəndaşlarının yüksək rifahının təminatçısıdır.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Mətbəx elin, evin göstəricisidir

## Qubalılar onu qonaqlara layiqincə nümayiş etdirdilər





Hər bayramı bir-birindən maraqlı töhfələrlə qarşılamaq Qubada artıq ənənə şəklini alıb. Elimizin ən gözəl adətləri burada qorunub saxlanılır. Qədimliklə müasirliyin vəhdətinə gəlincə, burada bunu bütün sahələrdə açıq-aydın görmək olar.

Multikulturalizmin nümunəsi kimi tanınan Quba yenə möhtəşəm bir festivala evsahibliyi etdi. Müxtəlif xalqların nümayəndələri burada toplaşaraq zəngin və təkrarolunmaz, hər bir regionun özünə xas olan təamları ilə bir araya gəldilər. Deyirlər, süfrəsi açıq olanın ruzisi də bol olar. Mədəniyyət Nazirliyi, Dövlət Turizm Agentliyi, Quba Rayon İcra Hakimiyyətinin dəstəyi və Xaçmaz Rayon Regional Mədəniyyət İdarəsi və Quba destinasiya menecment təşkilatının birgə təşkilatçılığı ilə rayonun Nizami Gəncəvi adına parkında regional mətbəx festivalı keçirilib.

Festivalda Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarında yaşayan azsaylı xalqların və etnik qrupların hazırladıqları yemək və şirniyyatlar, eləcə də turizm sahəsi peşəkarlarının onlarla qida məmulatı nümayiş olunub. Tədbirdə xüsusi maraq doğuran əsas məqam isə mətbəx nümunələrinin, yemək çeşidlərinin hər bir xalqın və regionun milli, etnik, adət və ənənələrinə uyğun olaraq iştirakçılara təqdim edilməsi və onların folklor nümunələri ilə qarşılanmaları olub. Burada nəinki yemək, şirniyyat, içki növləri, onların göz önündə hazırlanması, etnosların öz dilində şeir, mahnı oxumaları, rəqs etmələri, Azərbaycan filmlərindən mətbəxlə bağlı səhnəciklərin göstərilməsi festivala bir qaynarlıq gətirib.

Festivalın keçirilməsində bu parkın seçilməsi də xüsusi əhəmiyyət daşıyırdı. Bir növ rayonun mərkəzi sayılan park yaşıllıqlara bürünüb. Yay günəşinin həsrət çəkdiyi məkanda hava o qədər də isti olmur. Bir tərəfdən də Qudyalçayın sərin mehi insanın ruhunu oxşayır. Park başdan-başa mətbəx ənənələrinə uyğun bəzədilmişdi. Məxsusi olaraq festival üçün tərtib edilmiş xəritəyə əsasən fermerlərin məhsulları, etnik yeməklər, tez və asan başa gələn yerli qəlyanaltılardan ibarət "Fastood"lar üçün guşələr ayrılmış, uşaqların maraq dünyası nəzərə alınaraq kloun və nağıl qəhrəmanlarının olduqları zona təşkil edilmişdi.

Tədbirə Azərbaycan mətbəxini özündə ehtiva edən sərgilərə baxış keçirməklə start verildi. Xüsusilə region istehsalçılarının və turizm sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların məhsul və xidmətləri, onların dizaynla açılmış süfrələri mətbəx dünyasını sanki təzələyirdi. Parkın göz oxşayan guşələrinin birində təşkil olunmuş mini zoopark hamının marağına səbəb oldu. İştirakçılar, yerli və əcnəbi turistlər Quba rayonunun turizm potensialını əks etdirən fotostendlərlə tanış oldular. Onlara bu mövzuda bukletlər paylandı.

"Şahdağ" istirahət mərkəzinin əməkdaşları da mərasimə əliboş gəlməmişdilər. Onlar dağ turizminin əyləncə vasitələri - sinvey, drodinet, qvadreskil və başqa texnikaları nümayiş etdirir, onlardan istifadə qaydalarını əyani olaraq göstərirdilər.

Quba Heydər Əliyev Mərkəzi şorqoğalı, şəkərbura, paxlava, artıq hazırlanma qaydası unudulmuş qədim naxış və butalarla bəzədilmiş şirniyyatları iştirakçılara təqdim etdi. Rayonun tarix-diyarşünaslıq muzeyinin "Bəy mərasimi" də maraqla qarşılandı.

Birinci Nügədi kəndində yerləşən "Macəra" istirahət mərkəzinin sərgilədiyi keçi ətindən hazırlanmış təamlar, habelə ətdən düzəldilmiş kompozisiya böyük tamaşaçı kütləsini özünə cəlb etdi. Susayın "Canlı bulaq suyu" adlı sərgisində cirə-duzu və xərək çörəyi ilə süfrəyə verdiyi "tat çığırtması", xınalıqlıların qədim tərəkəmə yeməkləri - çoban süfrəsi pendiri, bozartması, lokumu sərgiyə baxış keçirənlərin damaq dadına səbəb oldu.

Yəhudilərin də bayram süfrəsi maraqla qarşılandı. Belə ki, süfrəyə fətir - massa, onunla yeyilməsi nəzərdə tutulan qoz, fındıq, xurma ilə bişirilən haroset, cırhacır almadan hazırlanmış halva, balıq qızartması və yəhudilərin ənənəvi bayram içkisi - kidus (üzüm suyu) düzülmüşdü.

Festivalın bədii hissəsi gecə saatlarına qədər yerli folklor kollektivlərinin, tanınmış müğənnilərin qəlb oxşayan musiqiləri, həmçinin "Saloxo" rəqs və "Palant" ritm qruplarının nağara şousu ilə davam etdirilib.

**Akif ƏLİYEV,**
**"Azərbaycan"**

# "Vəhdət dəyərimizdir" layihəsi uğurla icra edilir

Tarixi köklərə və milli təfəkkürə əsaslanan multikulturalizm və tolerantlıq dövlət siyasəti olmaqla yanaşı, müasir Azərbaycan cəmiyyətində dəyişməz həyat tərzi kimi təzahür edir. Ölkəmizdə olan tolerant və multikultural reallığın təkcə azərbaycanlıların deyil, xaricdəki alimlərin, görkəmli elm xadimlərinin, siyasət nümayəndələrinin, həmçinin tələbələrin gözü ilə dünyaya təqdim edilməsi də müsbət ənənəyə çevrilməkdədir.

Azərbaycanda bu dəyərlərin bariz təzahürlərindən biri də müsəlmanlar arasında mövcud olan vəhdət ənənəsidir. Əhalisinin 96 faizi müsəlmanlardan ibarət olan ölkəmizdə tarixən birlik və həmrəylik müşahidə edilmiş, dini zəmində hər hansı qarşıdurma qeydə alınmamışdır. Müsəlmanlar arasında mövcud olan bu vəhdət mühiti xalqımızın dini-mənəvi dəyərlərə olan ali münasibətinin də göstəricisidir.

Bu məqsədlə Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən 2019-cu ildə ölkəmizdə yaşayan müsəlmanlar arasında vəhdət mühitinin gücləndirilməsi, multikultural dəyərlərin və tolerant ənənələrin təbliği, din xadimləri arasında sosial münasibətlərin möhkəmləndirilməsi məqsədilə "Vəhdət dəyərimizdir" adlı layihə icra edilməkdədir. Layihənin məqsədi Azərbaycanın müxtəlif bölgələrindən olan din xadimlərinin iştirakı ilə seminarların təşkili, müxtəlif mühazirələrin dinlənilməsi və bölgələrin dini, eləcə də tarixi-mədəni abidələri ilə tanışlıqdan ibarətdir.





Fond tərəfindən aprel ayında respublikamızın şimal və cənub bölgəsinin din xadimlərinin iştirakı ilə Lənkəran rayonunda, iyun ayında Bakı və Sumqayıt şəhərlərinin, habelə şimal-qərb bölgəsinin din xadimlərinin iştirakı ilə Zaqatala rayonunda iki seminar uğurla təşkil edilmiş, cəmiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

"Vəhdət dəyərimizdir" layihəsinin digər iki seminarının keçirilməsi isə avqust ayında Oğuz rayonunda və sentyabr ayında Gəncə şəhərində nəzərdə tutulmuşdur. Həyata keçirilən layihə əsnasındakı müşahidələr deməyə əsas verir ki, bu kimi tədbirlər din xadimləri arasında sosial münasibətlərin və vəhdət mühitinin gücləndirilməsinə xidmət etməklə yanaşı, cəmiyyətə birlik və həmrəylik ismarıcı baxımından da olduqca əhəmiyyətlidir.

**Xəyalə MURADLI,**
**"Azərbaycan"**

# Cəbhə bölgəsindəki hərbi hissələrdə təlim-metodiki məşğələlər keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən cəbhəboyu zonada yerləşən hərbi hissələrdə və ön xətt bölmələrində komandir-rəis heyəti ilə ideoloji iş və mənəvi-psixoloji təminatın, eləcə də hərbi intizamın möhkəmləndirilməsi sahəsində işin səmərəliliyinin artırılması məqsədilə təlim-metodiki məşğələlər keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, keçirilən məşğələlərdə və aparılan müzakirələrdə komandir-rəis heyətinə ideoloji iş və mənəvi-psixoloji təminat sahəsində rəhbər sənədlərin hazırlanması, həmçinin onların icrası ilə bağlı nəzəri və praktik köməklik göstərilib.

Cinayət və digər hadisələrin qarşısının alınması məqsədilə profilaktik tədbirlərin effektivliyinin artırılması üçün müvafiq tövsiyələr verilib.

# Sərt iqlim şəraitində yerləşən hərbi bölmələrin qış mövsümünə hazırlığı yoxlanılıb





Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi illik plana əsasən, nazir müavini, general-leytenant Kərim Vəliyevin rəhbərlik etdiyi heyət və hərbi birliyin komandanlığı cəbhəboyu zonada hündür dağlıq ərazi və sərt iqlim şəraitində yerləşən bölmələrdə olub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər zamanı bölmələrin qışa hazırlıq iş-



lərinin keyfiyyəti, şəxsi heyətin qış mövsümü normalarına uyğun təminatı və təchizatı yoxlanılıb.

Hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, onların sosial-məişət şəraiti ilə maraqlanan nazir müavini qış dövrünə zəruri hazırlıq işlərinin görülməsi ilə əlaqədar müvafiq xidmətin daha keyfiyyətli təşkili ilə bağlı Müdafiə nazirinin tələblərini vəzifəli şəxslərə çatdırıb və konkret tapşırıqlar verib.

# Ermənistanda hər il on minlərlə gənc hərbi xidmətdən yayınır

## İşğalçı ölkənin ordusunda korrupsiya və özbaşınalıq geniş yayılıb

Əvvəli 1-ci səh.

Elə buna görədir ki, bir çox əsgər məzuniyyəti bitdikdən sonra hərbi hissəyə qayıtmaqdan imtina edir.

Bunlardan biri də Ermənistanın Acapnyak rayonundan hərbi qulluğa cəlb olunmuş 19 yaşlı S.Narekdir. Bildirilir ki, iyunun 30-da məzuniyyəti başa çatan hərbçi qayıtmalı idi. Lakin o, məzuniyyətdən sonra öldürüləcəyi səbəbi ilə hərbi hissəyə qayıtmaqdan imtina edib. Əsgərin yaxınları onun hərbi hissəyə qayıtmaq istəmədiyinə görə, Ermənistan Fövqəladə Hallar Nazirliyinin xilasetmə xidmətinin psixoloji mərkəzinə müraciət edib. Psixoloji sarsıntı keçirmiş əsgər Muratsan hərbi hospitala yerləşdirilib.

Qeyd olunur ki, Ermənistanda hər il 10 mindən çox gənc orduda xidmətdən yayınır və hüquq mühafizə orqanları onların barəsində axtarış elan ediblər. Döyüş itkilərindən əlavə, Ermənistan ordusunda baş verən fərarilik, ölüm, döyülmə, rüşvət, korrupsiya, intihar, təcavüz və digər nizamnamədən kənar halların sayı dəfələrlə artıb. Əvvəlki kimi, erməni ordusu daxildə çox ciddi qütbləşməyə məruz qalır, qarabağlı-yerevanlı məsələsi bu silahlı qüvvələrin durumunu daha da pisləşdirir. Komandirlər tərəfindən hərbi hissələrdən hərbi qulluqçuların qeyri-qanuni yolla müəyyən olunmuş pul müqabilində ay ərzində hərbi hissədən kənara buraxılması halları hələ də davam etməkdədir.

Ötən ay işğal edilmiş Ağdərə rayonu ərazisində yerləşdirilən düşmən ordusunun hərbi hissələrindən 10 gün ərzində 5 hərbi qulluqçu qaçıb ki, bunlardan biri də bölük komandiridir. Kotayk hərbi komissarlığından çağırılmış, 2000-ci il təvəllüdlü Hamlet Adamyan bir neçə gün əvvəl döyüş postunda silahını da ataraq hərbi hissədən qaçıb. Eyni zamanda bölük komandiri kapitan Tiqran Hovhanesyan, əsgərlər Rudik Xaratyan, Artyom Veranyan və Radik Georgiyanın da hərbi hissəni özbaşına tərk etdikləri bəlli olub. Əsgərlər R.Xaratyan və A.Veranyan Yerevanda dələduzluq etdiklərinə görə həbs ediliblər. Onların hərbi qulluqçu olduqları bilindikdən sonra hərbi polisə təhvil veriliblər. Məhkəmənin qərarı ilə fərarilik edən bölük komandiri kapitan Tiqran Hovhanesyan isə xidmətini davam etdirmək üçün ön xətdə olan başqa bölməyə göndərilib.

İyulun əvvəllərində ermənistanlılarla qarabağlılar arasında növbəti kütləvi davada iştirak edən hərbi qulluqçular Tatul Karapetyan, Narek Papoyan və Harut Petrosyan Ağdərə hərbi prokurorluğuna aparılıblar. Cinayət işinin istintaqını aparan müstəntiq Hovik Sarkisyanın dediyinə görə adları çəkilən hərbi qulluqçular həm davanın səbəbkarı kimi, həm də xidmət yoldaşlarına xəsarət yetirməkdə təqsirləndirilirlər.

Bütün bunlar müasir erməni ordusunun reallığıdır. Ermənilər özləri də etiraf edirlər ki, bu gedişlə ordularından əsər-əlamət qalmayacaq. Amma bunlar ordu hesabına da var-dövlətlərini artırmağa çalışan ölkə rəhbərliyini qətiyyən narahat etmir. Ermənistan ordusunda kriminogen vəziyyətlə yanaşı, komandir və rəislər hərbi xidmətə çağırılan hərbi qulluqçuların sağlamlığına yenə də son dərəcə biganə yanaşırlar. Bütün bunlar ordunun döyüş qabiliyyətini daha sürətlə aşağı salır və itkilərin sayını çoxaldır.

**Elçin CƏFƏROV,**
**"Azərbaycan"**

# Atəşkəs rejimi 20 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Məzəm kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Füzuli rayonunun Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.



# İÇƏRİŞƏHƏR



● Bakı əsilzadələri

**...Əlindəki bağlamadan bərk-bərk yapışmış orta yaşlı qadın asta addımlarla həbsxana qapısına doğru irəliləyirdi. Yayın iyul günəşinin Bakının daşını, torpağını yandırıb yaxan ən isti vədələri idi. Amma o, ətrafdakı cəhənnəm istisini hiss etmirdi. Artıq neçənci dəfə idi ki, gəlirdi bura. Bolşevik repressiyasının qanlı caynaqlarına keçmiş yüzlərlə günahsız insan kimi həbsxana divarları arasında taleyinə kəsilmiş ölüm fərmanını gözləyən ömür-gün yoldaşına yemək gətirirdi.**

**Giriş qapısındakı həbsxana nəzarətçisi onu tanıdı. "Daha bura gəlmə" dedi, çiynindəki tüfəngin qayışını düzəldib bir onun əlindəki bağlamaya, bir də sual və təlaş dolu gözlərinə baxdı: "Ərini gecə Nargin adasında güllələdilər".**

**Qadının bəti-bənizi ağardı, huşunu itirdi, gözünü açanda özünü bütün var-dövlətləri əlindən alınandan sonra sığındıqları evdə gördü. Övladları ona sarılıb ağlaşırdılar, bu kədər mənzərəsi üzərində o gecə Nargin adasında kor bir güllə ilə cismindən qoparılmış narahat bir ruh dolaşırdı...**



# Məşhur Aşurbəyovlardan biri

## Bir məktubun izi ilə

XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşamış görkəmli şəxsiyyətlərin nəcib əməlləri o qədər zəngindir ki, milli elmimiz bu mənəvi xəzinənin bəlkə də cüzi bir hissəsinə yaxın düşə bilib. Bir çox adlar, ömürlər, fakt və hadisələr isə yaddaşlarda, xatirələrdə, arxiv sənədlərində hələ də öz tədqiqatçılarının yolunu gözləyir.

Bəzən heç gözləmədiyimiz halda çox qısa bir soraqdan, kiçik bir işıq zərrəsindən bu tarixə doğru geniş cığır açılır. O sorağın izinə düşüb irəlilədikcə xalqımızın nə qədər maraqlı tarixi keçmişə, böyük şəxsiyyətlərə malik olduğunu bir daha dərk edirsən. Eyni zamanda gənc nəslin indiyə qədər bu tarixdən, şəxsiyyətlərdən xəbərsiz qalmasına da təəssüflənməyə bilmirsən...

Bu il anadan olmasının 120-ci ildönümü tamamlanan böyük ədibimiz Cəfər Cabbarlının nəşrlərindən birində - 1996-cı ildə çapdan çıxan "Ədirnə fəthi" kitabında verilən məktublar bölməsi çox maraqlı bir mətnlə başlanır. Bu, gələcəyin yazıçı-dramaturqunun ictimai məzmun kəsb edən ilk məktubu idi. C.Cabbarlı bu naməni o zaman hələ Bakı şəhərindəki 7-ci Müsəlman-rus, o dövrün dili ilə desək, rus-tatar məktəbində oxuyarkən bir qrup şagird yoldaşı ilə yazaraq imzalayıb. Həmin məktub "Təzə həyat" qəzetinin 8 aprel 1907-ci il tarixli 7-ci nömrəsində dərc edilib. Təşəkkür məzmunlu namənin ünvanlandığı şəxsin adı və soyadı isə məktubun məzmunu qədər böyük maraq doğurur: Bəşir bəy Aşurbəyov.

"Bakı şəhərinin 7-ci Müsəlmani və rusi məktəbinin ianə alan şagirdləri: Əsgər Hüseynzadə, Mirzə Qasım Cabbarzadə, Ağaməli Hüseynzadə, Cəfər Cabbarzadə və Məhərrəm Mollazadə" millət qayğısına qalan, böyük neft milyonçusu Bəşir bəy Aşurbəyov cənablarına təşəkkürlərini çatdırır və söz verib vəd edirlər ki, elm və maarif qazanmaq yolunda daim səy göstərəcəklər. Məktub eyni zamanda Bəşir bəy Aşurbəyov kimi şəxsiyyətlərin millət və gələcək qarşısında dərk edilmiş ictimai məsuliyyət hissinə bir işarədir, imkanlı maarifçi cəfakeşlərin xeyirxah niyyətini, nəcib məqsədlərini, alicənablıqlarını göstərir. Bu, həm də XX əsrin əvvəllərindəki ictimai-siyasi ovqatın təsiri ilə milli şüurun oyanışını təsdiqləyir.

Bəs haqqında söhbət gedən həmin Bəşir bəy Aşurbəyov özü kim idi?!

## Millətin zərrəsi

Bu suala cavab tapmaqdan ötrü ilk etibarlı bələdçimiz Bəşir bəyin soyadıdır. Məlum olduğu kimi, Aşurbəyovlar Azərbaycan xalqının məşhur soylarındandır. Nəslin kökündə Aşur xan Əfşar dayanır. O, Nadir şahın dövründə Təbriz şəhərinin hakimi və Azərbaycanın sərdarı təyin edilmişdi.

1736-cı ildə Nadir şah Suqovuşan adlanan yerdə (indiki Sabirabad rayonu ərazisində) böyük xalq qurultayı (Muğan qurultayı, yaxud Suqovuşan qurultayı) çağırıb şah kimi taxta çıxır. Sonra Bakı və ətraf kəndlərdə özünə dayaqlar yaratmaq üçün əfşar tayfasının nümayəndələrindən bir çoxunu Sabunçu, Zabrat və Keşlə kəndlərində yerləşdirir. Onlar arasında Aşur xanın yaxın qohumları da vardı. Sonradan bu soyun davamçıları XIX-XX əsr Bakısının məşhur əsilzadələri kimi tanınırlar. Bu şəcərənin təmsilçisi olan görkəmli tarixçi-alim Sara xanım Aşurbəylinin əsərlərində, eləcə də digər mənbələrdə həmin nəslin ayrı-ayrı şəxsləri haqqında müfəssəl məlumatlar verilsə də, tədqiqatlarda Bəşir bəy Aşurbəyovun həyat və fəaliyyətinə, təəssüf ki, çox az yer ayrılır.



*Bəşir bəy Aşurbəyov və həyat yoldaşı Nəzakət xanım Aşurbəyova*

## Hacı Məhəmmədhəsən bəyin yeganə oğlu

Bəşir bəy 1875-ci ildə anadan olmuşdu. Sabunçu kəndinin tacirlərindən və əsas torpaq sahiblərindən olan Hacı Məhəmmədhəsən bəyin yeganə oğlu idi. Beş bacının bir qardaşı...

O dövrün müsəlman-Şərq adət-ənənələrinə görə, ailədə əsas vərəsə oğlan övladı sayıldığından Hacı Məhəmmədhəsən bəyin bütün varidatı da Bəşir bəyə keçmişdi. XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakıda neft bumu başlananda Bəşir bəy böyük neft mədənlərinə sahib idi. Bu mədənləri təkbaşına idarə etmək mümkün olmadığı üçün o, bu işə öz əmisi oğlanlarını da cəlb etmişdi. Onlara yeni mədənlər yaratmaları üçün torpaq sahələri ayırmışdı. Bəşir bəyin birinci həyat yoldaşı da elə öz əmisi qızı Balaxanım idi. Onların izdivacından Rübabə və Nağı adlı iki övladı dünyaya gəlmişdi. Amma bu, Bəşir bəyin yeganə evliliyi olmamışdı.

Bakıda yaşasa da, onun Azərbaycanın digər bölgələrində olan adlı-sanlı əsilzadələrlə sıx dostluq əlaqələri vardı. Onlardan biri Gədəbəyin Xınna dərəsi adlanan obada yaşayan və Yelizavetpol (Gəncə) quberniyasında böyük torpaq sahələri olan Allahyar bəy Zülqədərov idi. Allahyar bəyin həyat yoldaşı Seyidnisə çox varlı Misir tacirinin qızı idi.

Bəşir bəy Aşurbəyov Allahyar bəyin evində qonaq olarkən onun Nəzakət adlı qızını görüb bəyənir, elçi göndərir və onunla ailə qurur.

O, 1901-ci ildə birinci ailəsi üçün Sabunçu kəndində möhtəşəm bir imarət tikdirir. Həyat yoldaşı Balaxanım iki övladı və qayınanası Cəvahir xanımla bu imarətdə yaşayır. Bəşir bəy özü isə Nəzakət xanımla Bakının keçmiş Kladbişenski - 89 (indiki Mehdi Hüseyn küçəsi) ünvanında tikilmiş evə köçür. Onların bu evliliyindən dörd övladı - üç oğlan, bir qız dünyaya gəlir: Kazım, Məhəmmədhəsən, Midhət və Rəbiyyə.

## Xeyir əməllər

Atasından qalmış geniş torpaq sahələri, böyük neft mədənləri, Bakının müxtəlif yerlərindəki 10-a yaxın mülkü Bəşir bəy Aşurbəyova böyük sərvət qazandırır. O, qazancının müəyyən hissəsini xeyriyyə işlərinə xərcləyirdi. Ona görə də Bəşir bəy zəmanəsinin səxavətli mesenatlarından biri kimi ad qazanmışdı. 1897-ci ildə Sabunçu kəndində möminlərin istifadəsinə verilmiş məscidi də Bəşir bəy Aşurbəyov tikdirmişdi.

Bu məscidin inşası əslində onun atası Hacı Məhəmmədhəsən bəyin arzusu idi. O, həcc ziyarətinə gedərkən Sabunçu kəndindən özü ilə 10 zəvvarı da ziyarətə aparır. Onların bütün xərclərini ödəyir. Üstəlik, söz verir ki, kəndə qayıdandan sonra Sabunçuda böyük bir məscid tikdirəcək.

Ziyarətdən qayıdan kimi sözünə əməl edir. Kənd ağsaqqalları məsləhət görürlər ki, məscidi Sabunçu kəndindəki qədim tarixi abidələrdən olan "Göynüz məbədi"nin qalıqları üzərində tikdirsin. Nəhayət, təntənəli şəkildə təməlqoyulma mərasimi keçirilir. Lakin əfsuslar olsun ki, arzusunun həyata keçməsini görmək Hacı Məhəmmədhəsən bəyə qismət olmur. Məscid hazır olmamış xəstələnir və vəfat edir. Tikinti işlərini 20 yaşlı oğlu Bəşir bəy tamamlayır.

## Maarif və mədəniyyət hamisi

Bəşir bəyin xeyriyyəçilik fəaliyyətinin mühüm bir qismini də təhsilə, maarifə dəstək təşkil edirdi. Ayrı-ayrı məktəblərdə oxuyan şagirdlərə davamlı ianələrindən başqa o, Cənubi Azərbaycandan olan fəhlə balaları üçün 1901-ci ildə Sabunçuda məktəb açır. El arasında "Həmşəri məktəbi" kimi tanınan bu təhsil ocağının fəaliyyətinə uzun illər dəstək verir. Buradakı uşaqları yeməklə, dərsliklərlə, geyimlərlə təmin edir.

Bəşir bəyin Sabunçuda anası və birinci ailəsi üçün italyan memarlarına tikdirdiyi imarətdə indi Xocalıdan olan məcburi köçkün ailələrinin övladları üçün məktəbin fəaliyyət göstərməsi də, görünür, taleyin qəribə bir qanunauyğunluğu və nəcib missiyanın davamıdır.

Bu missiya isə təkcə təhsillə, maariflə tamamlanmırdı. Ədəbiyyatı, incəsənəti çox sevən, özü də gözəl şeirlər yazan Bəşir bəy Aşurbəyli (şeirlər kitabı AMEA-nın Əlyazmalar İnstitutunda qorunur) mədəniyyət adamlarının da hamisi idi. Bunu mədəniyyət tariximizin keşməkeşli məqamları ilə bağlı çox maraqlı faktlar təsdiqləyir. Həmin faktlardan biri Azərbaycanın görkəmli musiqi və ictimai xadimi Müslüm Maqomayevlə bağlıdır. Belə ki, 1911-ci ildə Müslüm Maqomayev Sabunçu məktəbinə müəllim təyin edilir. Bütün varlığı ilə sənətə bağlı olan və akademik musiqinin, teatrın xalq üçün önəmini yaxşı dərk edən bu böyük insan bir müddət çalışdıqdan sonra Sabunçuda teatr yaratmaq qərarına gəlir. Amma kəndin söz sahibləri, nüfuzlu, varlı-karlı adamları ona mane olmağa başlayırlar. Bu zaman Bəşir bəy irəli çıxır, Sabunçuda teatrın yaradılmasında Müslüm Maqomayevə dəstək olur, lazımi köməyi göstərir. Qaragüruhçular onun nüfuzu qarşısında geri çəkilməli olurlar. Bir maraqlı məqamı da diqqətə çatdıraq ki, 1925-ci ildə ilk Azərbaycan filmlərindən birinin çəkilişləri də Bəşir bəyin 1915-ci ildə Sabunçu vağzalı yaxınlığında yetim uşaqlar üçün tikdirdiyi və yerli əhali arasında "Putovski dvor" adlanan yerdə aparılıb. Sabunçuya ilk dəfə fotostudiyanı gətirən də Bəşir bəy Aşurbəyov olub.

Mədənlərində çalışan yoxsul, kimsəsiz gənclər də Bəşir bəyin himayəsində idilər. O, belə gənclərin ailə qurub ev-eşik sahibi olmalarına kömək göstərmək üçün indiki Sabunçu vağzalının yaxınlığında ikimərtəbəli binalar inşa etdirmişdi. Bəşir bəy qohumu Nabat xanım Aşurbəyovanın tikdirdiyi xəstəxanada imkansız insanların müalicəsinə dərmanla da kömək göstərirdi.

## "Qafqaz İttihad Firqəsi"

Bəşir bəy Aşurbəyovun ömrünün ən maraqlı səhifələrindən biri də onun ictimai-siyasi fəaliyyətidir. O, 1917-1920-ci illərdə Azərbaycanda fəaliyyət göstərmiş "Qafqaz İttihad Firqəsi"nin yaradıcılarından idi. Bu siyasi partiya özünün əsas xətti kimi islam ideologiyasını siyasət səviyyəsinə qaldırmağa çalışırdı. Firqənin ideoloji əsasını ittihadi-islam, islam modernizmi, islam reformizmi kimi o dövrdə çox populyar olan nəzəriyyələr təşkil edirdi.

Bəşir bəy Aşurbəyov partiyanın formalaşması prosesində "Rusiyada Müsəlmanlıq" təşkilatının nümayəndəsi kimi iştirak edirdi. O, bu firqənin təşkilində də böyük rol oynamışdı. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının 2-ci cildində (Bakı, "Lider" nəşriyyatı, 2005, s. 110) oxuyuruq ki, qurumun formalaşmasında Bəşir bəy Aşurbəyovdan başqa Sultanməcid Qənizadə, Mir Yaqub Mehdiyev, Mahmud Quliyev, Kərimağa Sultanov, Hacı Hüseyn Tağıyev, Qasım Cəfərov, Ağa Zeynal Tağıyev (Hacı Zeynalabdin Tağıyevin nəvəsi) də fəal iştirak etmişlər.

Azərbaycan Parlamentində "Qafqaz İttihad Firqəsi" sayca ikinci böyük fraksiya (əvvəl 11, sonra isə 13 deputatla) idi. Parlamentdə bu fraksiyaya Qara bəy Qarabəyli rəhbərlik edirdi. Partiya bir müddət "İttihad`i-islam-Rusiyada müsəlmanlıq" adı altında fəaliyyət göstərmişdi. Onun əvvəlcə "Müsəlmanlıq" adlı qəzeti nəşr olunurdu. Daha sonra isə Ceyhun bəy Hacıbəylinin redaktorluq etdiyi "İttihad" qəzeti partiyanın orqanına çevrilmişdi. Bəşir bəy Aşurbəyov bu mətbuat orqanlarının nəşrinə maliyyə yardımı göstərir, dəstək olurdu.

1920-ci il yanvar ayının 25-də partiyanın ikinci qurultayı keçirildi. Bəşir bəy Aşurbəyov bu qurultayda partiyanın Mərkəzi Komitəsinə seçilir. MK-nin digər üzvləri isə Nəcəf bəy Vəzirov, Həbib bəy Mahmudbəyov, Cəmil bəy Lənbəranski və başqaları idi.

İttihadçılıq ideologiyasının ana xəttini ideal islama, peyğəmbər dövrünün mövhumat və xurafatdan uzaq ənənələrinə qayıdış prinsipi təşkil edirdi. Özü də bu zaman islam qanunlarının bu dövr üçün populyar olan demokratiya, azadlıq, bərabərlik kimi prinsiplərinin açıqlanmasına xüsusi fikir verilirdi. Bu xətt Bəşir bəy Aşurbəyovun ruhuna çox uyğun idi. O, insanların münaqişələrdən, zorakılıqlardan, qanunsuzluqlardan uzaq şəkildə, sülh və inkişaf mühitində yaşamalarını, elm və mərifət sahibi olmalarını istəyir, bunun üçün çalışırdı.

## Ermənilərlə üz-üzə

XX əsrin əvvəllərində Bakının neft sənayesində yaxından iştirak edən və bu el-obadan qazandıqları sərvətlərin bir qismini öz nankor xislətlərindən irəli gələrək həmin yurdun insanlarına - Bakının türk-müsəlman əhalisinə qarşı təxribatlara, kütləvi soyqırımı niyyətlərinə xərcləyən erməni neftxudaları 1906-cı ildə məkrli bir plana əl atırlar.

Onlar qədim tarixə malik Sabunçu kəndinin məscidinin də olduğu aşağı məhəlləsinin ləğv edilməsi, sakinlərin köçürülməsi və burada erməni sahibkarlara məxsus neft mədənlərinin salınması barədə iddia qaldırırlar. Məqsəd Sabunçu torpaqlarını ələ keçirib bol sərvət qazanmaq idi. Bakı Qubernatoru Alışevski iddianı təmin etmək üçün öz nümayəndəsini Sabunçuya göndərir. Qubernatorun nümayəndəsi kəndə çatanda qarşısında Bəşir bəyi görür. Bəşir bəy onu tikdirdiyi məscidin həyətinə aparır. Su quyusunu açır və içindəki suyu göstərir. Deyir ki, əgər buradan neft çıxsaydı, mən həmin yerdə məscid tikdirməzdim, neft çıxarardım. Bəşir bəy Aşurbəyov bu ərazidə yaşayanların hamısının onun qohumları olduğunu və onların köçürülməsinin yolverilməzliyini bildirir. Halbuki evləri köçürüləcək ailələrin heç birinin Bəşir bəyə qohumluğu çatmırdı. Amma o, dövlət idarələri rəhbərlərinin yanındakı yüksək nüfuzundan istifadə edərək erməniləri geri oturdur. Sabunçu kəndinin dağıdılmasına imkan vermir. "Həyat" qəzetinin 1906-cı il tarixli saylarında bu barədə dəfələrlə geniş təfsilatlar öz əksini tapıb.

Erməni daşnaklarının bolşeviklərlə birləşərək 1918-ci ilin martında azərbaycanlılara qarşı törətdikləri soyqırımı zamanı da Bəşir bəy Aşurbəyli Sabunçu kəndi sakinlərinin kütləvi qətllərdən qorunması üçün böyük qəhrəmanlıqlar göstərmişdi. O, Qoçu Yusif kimi tanınan xalası oğlu və digər yerli qoçularla birgə Sabunçu dairəsi yaxınlığında müdafiə mövqeləri qurur, ətraf kəndlərdən də əlisilahlı insanlar köməyə gəlir. Burada güclü atışmalar baş verir. Daşnakların Sabunçuya girməsinin qarşısı alınır. Beləliklə, Qafqaz İslam Ordusu gələnə qədər həm kənd sakinlərinin, həm də ərazidəki neft mədənlərinin mühafizəsi təmin olunur.

## "Qırmızı terror"un hədəfi

XX əsrin əvvəllərində yenicə təşəkkül tapmaqda olan Azərbaycan milli burjuaziyasının bir çox təmsilçiləri kimi Bəşir bəy Aşurbəyov da sovet hakimiyyəti qurulandan sonra çox çətin tale ilə üzləşir. Əksər qohumları təqiblərdən yaxa qurtarmaq üçün Türkiyəyə, İrana köçüb məskunlaşırlar. Ona da vaxtında ailə üzvlərini götürüb ölkəni tərk etmək tövsiyə olunur. Amma Bəşir bəy bütün var-dövlətini yeni hökumətə bağışladığından bolşeviklərin bir quruca canı ona çox görməyəcəklərini düşünür. "Nəyim var təhvil vermişəm, qalan bir quru canımdır, istəyirlər, gəlib onu da alsınlar", - deyir. Bəşir bəy Aşurbəyovun yeni hakimiyyətin Nəriman Nərimanov kimi milli ruhlu təmsilçiləri ilə də çox yaxın münasibətləri vardı. Nərimanov kiminsə ona toxunmasına imkan verməyəcəyini bildirmişdi. Onda Bakıda qalması üçün əminlik yaradan həm də bu idi. Nəriman Nərimanovun Moskvada vəfatına qədər həqiqətən kimsə Bəşir bəyə dəyib dolaşmır. O, Sabunçu kəndində, bir vaxtlar xidmətçilərinin yaşadığı sadə bir komada ailəsi ilə birgə həyatına davam edir. Nə qədər çətin olsa da, dəyişən tarixi reallıqlara dözümlə yanaşmağı öyrənir. Ailənin Sabunçudakı imarətini sovet hökuməti onlardan alıb Qadın Klubuna çevirir. Kluba ayaq açan erməni, rus qadınları isə qısa müddətdə evin bütün mükəlləfiyyətini, əşyalarını talan edirlər. Bütün bunları, təbii ki, Bəşir bəy də eşidir, amma hər şeyə rəğmən vəziyyətlə barışmağa, var-dövlət əldən çıxandan sonra quru canını da olsa, qorumağa çalışır. Amma tezliklə bunu da Bəşir bəyə çox görürlər. 1925-ci ildə o, tutulur, 5 illik həbs həyatından sonra, 1930-cu ildə Nargin adasında güllələnir. Yaxınları onun maddi imkanlarına, yəni o dövrün ifadəsi ilə desək, qolçomaq olduğuna görə güllələndiyini düşünürlər. Amma "qırmızı terror"un onu hədəf götürməsində, böyük ehtimalla Bəşir bəy Aşurbəyovun "Qafqaz İttihad Firqəsi"ndəki siyasi fəaliyyətinin də mühüm rolu olmuşdu.

Qız nəvəsi Nəzakət xanım Aşurbəyova - Ələkbərova söyləyir ki, nənəm axırıncı dəfə Bayıl həbsxanasında olanda qəfildən ona Bəşir bəyin güllələndiyi xəbərini verirlər: "O, elə oradaca huşunu itirir. Bu hadisədən sonra heç bir il də yaşamır. Həmin vaxt Kazım dayımın 9, anam Rəbiyyənin cəmi 13, Midhət dayımın 15, Məhəmmədhəsən dayımınsa 17 yaşı vardı. Ailə bununla da pərən-pərən düşür".

Nəzakət xanım 1989-cu ildə Respublika Prokurorluğuna müraciət edir. Babasının repressiya qurbanı kimi günahsızlığı təsdiqlənir və 1991-ci ilin 13 noyabrında Bəşir bəyə bəraət verilir. "Mən ərizəni təqdim edəndə Respublika Prokurorluğunda yaşlı bir ədliyyə işçisi vardı. Bəşir bəy Aşurbəyovun nəvəsi olduğumu biləndə dedi ki, xəbəriniz varmı, Bakıya ilk avtomobili sənin baban gətirib".

Nəzakət xanım Aşurbəyova - Ələkbərova bolşevizmin taleyini qaraltdığı doğma insanların ömürlüyündən kədərli epizodları xatırladıqca gözləri dolur.

Bizsə bu kədərli gözlərin ardında sovet repressiyasının min bir əzab-əziyyətə düçar etdiyi milyonlarla insanın faciəsini, bütöv nəsillərin taleyinə vurduğu sağalmaz yaraları görürük.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

● Məhəllələr

# Dar döngələr kasıbların, geniş meydanlar varlıların məskəni idi

**İnkişaf etmiş orta əsrlərdə Bakı şəhəri tikilərkən əyri dar küçələrdən və dörd məhəllədən təşkil olunmuşdu. Orta əsrlərdə isə İçərişəhər artıq doqquz məhəllədən təşkil olunmuşdu. Hər məhəllə bir məscidin adı ilə adlanırdı və oranın öz mollası vardı. Cümə məscidi məhəlləsi, Şah məscidi məhəlləsi, Məhəmmədyar məscidi məhəlləsi, Hacı Qeyib məscidi məhəlləsi, Hamamçılar məscidi məhəlləsi, Sınıqqala məscidi məhəlləsi, Qasım bəy məscidi məhəlləsi və s.**



Əlbəttə, məhəllələrin sayı və adları tarixi şəraitə, əhalinin məşğuliyyəti, assimilyasiya və məskunlaşma strategiyasına, həmçinin urbanizasiya ilə bilavasitə əlaqədar idi. Son orta əsrlərdə İçərişəhərin bəzi məhəllələrinin və məscidlərinin adları həmin ərazidə yaşayan xalqların və tayfaların adı ilə adlandırılmışdı. Məsələn, Giləklər məhəlləsi Gilandan gələn tacirlərin yaşadığı məhəllə idi. Ləzgilər məhəlləsində Dağıstandan gələn silah və sursat ustaları yaşayırdı. İçərişəhərin əhalisinin çoxu ustalar, tacirlər və dənizçilər idi. Bəzi məhəllələr isə orada yaşayan ustaların peşələrinin adı ilə adlandırılmışdır. Məsələn, Hamamçılar, Bəzzazlar, Həkkakçılar və s. İçərişəhərin yerli sakinləri müxtəlif tayfaları, yaxud nəsilləri təmsil edirdilər. Bu tayfaların bəzilərinin çox maraqlı adları var idi. Məsələn, Ağşalvarlılar, Toyuqyeyənlər, Toyuqyeməyənlər, Hoppataranlılar, Bozbaşlılar və s. Hər bir tayfa digər tayfalar haqqında məzəli əhvalatlar uydurur və zarafatlar edirdi.

Ölçülərinə və memarlıq tərtibatına görə bu məhəllələr standart deyildilər, həmin səbəbdən şəhərin planı xaotik tikililər təsiri bağışlayır.

Əhalinin əsas kütləsi müəyyən zümrəyə malik tacir və sənətkarlardan ibarət idi. Yüksək təbəqədən olanlar şəhərin ən yaxşı hissələrində yerləşən ayrı-ayrı məhəllələrdə məskunlaşırdı. Dar döngələr kasıbların məskəni idi: "Daha xoşbəxt siniflərin gözündən uzaq olaraq onlar özləri necə bilirdisə, elə də yaşayırdılar".

Şəhərdə hökmdar və aristokratiya yaşayan əsas "qala məhəlləsi" sayılırdı. Yazılı mənbələrdə şəhər əhalisinin yüksək təbəqəsi özlərinə gözəl binalar tikmişdilər.

Şəhər strukturunda sənətkar məhəllələrinin yeri istehsalın xüsusiyyətlərindən asılı idi. Zərgərlər mərkəzi bazara, dəri emalçıları su hövzəsinə, dəmirçilər şəhər qapılarına yaxın yerləşirdilər. Məsələn, iyli və tüstülü olduqlarına görə dəri emalı, dulusçuluq və dəmirçi istehsalı şəhər kənarında yerləşirdi.

Məhəllələrin formaları küçələrin istiqamətindən və sahənin relyefindən asılı olaraq çox müxtəlif idi. Düzgün olmayan formaya malik məhəllələrdə məskunlaşma çox sıx olduğundan yaşayış evlərinin inşası çətinləşirdi. Məhəllələrin aydın şəkildə yaşayış, ticarət-sənətkar məhəllələrinə bölünməsi izlənilmirdi, çünki sənətkarlar evlərində də işləyirdilər. Lakin bütün şəhər məhəllələrində mərkəzin yeri tam təyin edilmirdi. Tikilinin sistemsizliyi səbəbindən məscid və bir çox ticarət binalarının dislokasiyasını tamlıqla izləmək mümkün olmurdu.

Bakının köhnə planlarında küçələrin kəsişdiyi yerlərdə meydanlar göstərilmişdir. Lakin onların hamısı ölçülərinə görə çox kiçik və qeyri-müəyyən formadadır. Az bir hissəsi dövrümüzədək saxlanmışdır. Bəzi hallarda belə kiçik meydançalar küçələri müəyyən yerlərdə genişləndirmək yolu ilə yaradılırdı. İçərişəhərdəki məhəllə məscidləri onların ətrafında tikilmiş yaşayış binalarından çox da fərqlənmirdi.

***"Azərbaycan"***

● İnanclar

# Suya sitayiş

**Suya sitayiş, su ayini də içərişəhərlilərin dini təsəvvürləri tarixində mühüm yer tutur. Qədim inama görə, daş təbiətlə eyniləşdirilir, su isə həyatverici qüvvə və yol ilə əlaqələndirilir. Belə ki, pis adamın dalınca daş, uzaq yola çıxanın arxasınca isə su atardılar.**



Gəlin ər evinə yola salınanda da arxasınca su atırlar. Qədim dövrlərdən bəri şər ovsunlar su ilə yuyulur, pis yuxu suya danışılır, yaxın adama "yolun su kimi aydın olsun" deyirlər. Novruz bayramı ilə bağlı çərşənbələrin biri Su çərşənbəsi adlanır. Mifologiyadan məlum olan İştar və Nahid də su ayini ilə bağlıdır.

Arxaik inama görə, su ayini daş ayini ilə sıx bağlı olmuşdur. Belə ki, yağış yağdırmaq məqsədilə pirdən daş gətirər və onu suya atardılar, uzun sürən yağışların kəsilməsi üçün isə həmin daşı sudan çıxarıb oda atardılar.

Mineral su mənbələrinin şəfaverici xüsusiyyətləri bir çox pirlərə ehtiramın artmasına şərait yaratmışdır. Xalq inamına görə, çay sahilində, bulaq və onun ətrafında xeyir və şər ruhları yaşayır. Sitayiş yerinə çevrilmiş bir çox bulaqlara nəinki müalicə məqsədilə, həm də arzularının həyata keçməsi üçün gələrdilər. Günahlardan qurtarmaq və təmizlənmək üçün axar suyun üstündən tullanardılar.

Keçmişdə İçərişəhərdə su bayramı geniş miqyasda təşkil olunurdu. Bugünədək bir sıra bölgələrdə mərasim halında saxlanmış sulaşma adəti buna misal ola bilər. Xalq arasında bu bayram "baba su cəddim" adlanırdı. Qəbir daşlarında suyu təcəssüm etdirən bardaq şəkli çəkərdilər. Belə hesab edilirdi ki, insan öləndən sonra ruhu içində su olan bardağa keçir.

Su qədimdən xoşbəxtlik rəmzi hesab olunur. Azərbaycan folklorunda su ilə bağlı "su dirilikdir", "su həyatdır", "sucan ömrün olsun", "su kimi əziz ol", "suyun sərin olsun, ruzin bol olsun", "səni görüm bulaq kimi təravətli olasan", "su harada, dirilik orada", "su verən əli qaytarmaq olmaz" kimi ifadələr geniş işlənir.

***"Azərbaycan"***

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Peşəyönümü məsləhət xidmətlərinin satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 1500 (bir min beş yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.08.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **20.08.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.08.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

*Təkrar*

## "Bakı Metropoliteni" QSC müxtəlif növ kondisioner və məişət avadanlıqlarının satın alınması üzrə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1 Müxtəlif növ kondisioner və məişət avadanlıqlarının satın alınması**
**İştirak haqqı - 250 manat**
Hesabın adı: "BAKI METROPOLITENI" QSC
Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN
VÖEN: 1402871431
Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı: AZ02NABZ01350100000000022944
SWIFT BIK: AZRTAZ22

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19 avqust 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **27 avqust 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **28 avqust 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bərpa-gücləndirilmə və əsaslı təmir işləri üzrə müəllif nəzarəti xidmətlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14 avqust 2019-cu il saat 15:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85**

***Tender komissiyası***

# Yaralanmış hərbi qulluqçu əməliyyat olunub

İyulun 31-də Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində yerləşən sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatının qarşısının alınması zamanı yaralanmış hərbi qulluqçu üzərində aparılmış cərrahiyyə əməliyyatı başa çatıb. Hazırda onun vəziyyəti qənaətbəxşdir. Dövlət Sərhəd Xidməti rəisinin müavini - Sərhəd Qoşunlarının Komandanı general-leytenant Əsgər Xəlilov hərbi qulluqçuya baş çəkib, cərrahiyyə əməliyyatından sonrakı vəziyyəti ilə yaxından tanış olub.

General-leytenant Ə.Xəlilov hərbi hospitalda hərbi qulluqçunun valideynləri ilə görüşüb, övladlarını dövlətə sədaqət, vətənpərvərlik və düşmənə nifrət ruhunda tərbiyə etdiklərinə görə Dövlət Sərhəd Xidmətinin rəhbərliyi adından təşəkkürünü bildirib, oğullarının tezliklə sağalması üçün bütün lazımi tədbirlərin görüləcəyinə onları əmin edib.

*"Azərbaycan"*

*Təkrar*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Peşə və kvalifikasiya standartlarının hazırlanması xidmətlərinin satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 1500 (bir min beş yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.08.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **20.08.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.08.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Yəməndə terror aktı qurbanlarının sayı 49 nəfərə çatıb



Yəmənin paytaxt Ədəndə törədilmiş terror aktı və hərbi parad zamanı qiyamçıların hücumları nəticəsində həlak olanların sayı 49 nəfərə çatıb. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, terrorçuların paytaxtın Şeyx Osman rayonunda avtomobilə qoyulmuş bombanı partlatması nəticəsində 13 nəfər həlak olmuşdur. Hutsi qiyamçılarının Yəmən Silahlı Qüvvələrinin Al-Jalaa düşərgəsində və Al-Buraigeh rayonunda hücumları nəticəsində 36 hərbi qulluqçu öldürülüb.

Qiyamçılar hərbi düşərgəyə hücum zamanı dronlardan və orta mənzilli raketlərdən də istifadə ediblər. Partlayış nəticəsində yaralanmış 31 nəfərdən bir neçəsinin vəziyyəti ağırdır.

## Səudiyyə Ərəbistanında qadınlar xaricə səyahət edə biləcəklər

Səudiyyə Ərəbistanı hökuməti qadınların xarici ölkəyə getmələrini sadələşdirən və onların həddi-büluğa çatmamış uşaqlara himayədarlıq etməsinə icazə verən bir sıra qanunlara dəyişikliklər etmişdir. Bu barədə yerli KİV xəbər verir.

Bildirilir ki, qanuna yeni dəyişikliklər əsasında 21 yaşına çatmış qadınlara kişi himayədarının (həyat yoldaşı və yaxud kişi cinsindən olan yaxın qohumlarının) razılığı olmadan xaricə getməyə icazə verilir. Bundan əlavə, qadınlar kişi cinsindən olan ailə üzvlərinin razılığı olmadan xarici pasport almaq hüququna malik olacaqlar.

Həmçinin qadınlara ilk dəfə yeni doğulmuş uşaqları qeydiyyatdan keçirmək və həddi-büluğa çatmamış uşaqların himayədarı olmaq hüququ verilib. Bundan əvvəl uşaq doğularkən qadınların ya həyat yoldaşları, ya da 18 yaşına çatmış kişi qohumları uşağın doğulması barədə dövlət orqanlarına müraciət edə bilirdilər.

## Tailandda ASEAN sammiti vaxtı kiçik bombalar partladılıb

Cənub-Şərqi Dövlətlər Assosiasiyasının (ASEAN) sammitinin keçirildiyi Tailandın paytaxtı Banqkokda kiçik bombalar partladılıb. Bu barədə "Röyter" agentliyi xəbər verib.

ABŞ-ın dövlət katibi Mayk Pompeonun da iştirak etdiyi sammitə yaxın yerlərdə törədilən terror aktları nəticəsində 3 nəfər yaralanıb. Qeyd olunur ki, mart ayında keçirilən mübahisəli seçkilərdən sonra Tailandda daxili çəkişmələr daha da şiddətlənib.

Banqkokda və şəhərin beynəlxalq aeroportuna gedən yollarda təhlükəsizlik tədbirləri gücləndirilib. Əhaliyə edilən müraciətdə insanların təşvişə düşməsi üçün ciddi səbəb olmadığı bildirilib. Polis cinayətkarların yaxalanması üçün axtarış-əməliyyat tədbirləri görür.

## İranın neft ixracı azalıb

Amerika Birləşmiş Ştatlarının dövlət katibi Mayk Pompeo bildirib ki, Vaşinqtonun tətbiq etdiyi sanksiyalar nəticəsində iyun və iyul aylarında İran neftinin gündəlik ixracı 500 min bareldən də aşağı düşüb. Onun sözlərinə görə, bu, Ağ evin Tehranla bağlı siyasətinin səmərəli olduğunu göstərir. Bu barədə "Röyter" agentliyi xəbər verib.

ABŞ-ın dövlət katibi deyib: "Sanksiyaların tətbiq olunmasına qədər İran gündəlik 2,7 milyon barel xam neft ixrac edirdi. İyun və iyul aylarında isə bu göstərici 500 min bareldən də az olub". Onun sözlərinə görə, ABŞ bundan sonra da İranla bağlı sanksiya rejimini pozan şirkətlərə və dövlətlərə qarşı məhdudiyyətlər tətbiq edəcək.

Qeyd edək ki, Vaşinqton İran neftini alan Çinin "Zhuhai Zhenrong" şirkəti və onun rəhbərinə qarşı bu günlərdə sanksiya tətbiq edib. Beynəlxalq Energetika Agentliyinin statistik rəqəmlərinə görə, 2019-cu ilin mayında İranda neft hasilatı 1980-ci illərin minimal səviyyəsinə enib.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti xidməti minik avtomobilinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:
**LOT 1 -Xidməti minik avtomobilinin satın alınması;**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 700 (yeddi yüz) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**H/h: AZ18CTRE00000000000004788202**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının vergi şəhadətnaməsinin və nizamnaməsinin təsdiq edilmiş surəti;*
- *iddiaçının bank rekvizitləri haqqında məlumat;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş mənfəət vergisi bəyannaməsinin surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *bənzər layihələr üzrə iş təcrübəsini təsdiq etmək üçün belə layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatdan tövsiyə məktubu;*
- *ixtisas uyğunluğunun müəyyənləşdirilməsi üçün sənədlər;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **17 sentyabr 2019-cu il saat 17:00-dək,** tender təklifi və bank təminatını isə **19 sentyabr 2019-cu il saat 17:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **20 sentyabr 2019-cu il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd.** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayevə anası

**ARASTA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayevə anası

**ARASTA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Niyazi və Nizami Səfərovlar Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədova əzizi

**ELNUR NUHOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ənvər Seyidov, Tofiq İbrahimov və Fərrux Seyidov Adil Məmmədova əzizi

**ELNUR NUHOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyəti Rəyasət Heyətinin üzvü Sahib Səfərova bacısı

**NAZƏNİN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qusardan Şair Alxasov Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayevə anası

**ARASTA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru İqbal Babayevə anası

**ARASTA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayevə anası

**ARASTA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Dövlət Gömrük Komitəsi sədrinin müavini İqbal Babayevə anası

**ARASTA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qobustandan Adil Məmmədov Milli Məclis Aparatı Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

## B İ L D İ R İ Ş

"Azərbaycan qəzeti"nin 28 iyun 2019-cu il tarixli nömrəsində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına generator və köməkçi mexaniki avadanlıqların əsaslı təmiri işlərinin 2 LOT üzrə: LOT-1: Generatorların əsaslı təmiri işlərinin satın alınması və LOT-2: Köməkçi mexaniki avadanlıqların əsaslı təmiri işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderlərində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 29 avqust 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 30 avqust 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs Məmmədyar Musayev, 431 47 67/2288, mammadyar.musayev@azersu.az) müraciət edə bilərlər.

***Tender komissiyası***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8996
Sifariş 2501
Qiyməti 40 qəpik